

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 36 (878) ▪ 20 sentyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Yeni əsrin müqaviləsi Azərbaycanın parlaq gələcəyini təmin edəcək

**Sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.**




**Azərbaycanda iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılıb və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur**

Mərasimdə nitq söyləyən dövlətimizin başçısı bildirib ki, bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. «Azəri-Çıraq-Günəşli» nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır. «Bu gün imzalanacaq kontraktın ölkəmiz üçün çox böyük əhəmiyyəti var. «Azəri-Çıraq-Günəşli» neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir».

Prezident İlham Əliyev qeyd edib ki, 1994-cü ildə imzalanmış kontrakt da ölkəmizin maraqlarını tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır: «Bunun bir neçə əsas parametrlərini diqqətinizə çatdırmaq istəyirəm: kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın «AzAÇG» şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bunlar əsas şərtlərdir. Əlbəttə ki, kontraktın bir çox müddəaları var. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var. Onu qeyd etməliyəm ki, 23 il ərzində kontraktın icrası da çox uğurlu idi. Bu illər ərzində «Azəri-Çıraq-Günəşli»dən 436 milyon ton neft hasil edilmişdir. Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də «Azəri-Çıraq-Günəşli»də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq».

Dövlətimizin başçısı «Əsrin müqaviləsi»nin imzalanmasından ötən 23 il ərzində Azərbaycanın sürətlə inkişaf etdiyini və dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanındığını diqqətə çatdırıb: «Bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycan beynəlxalq aləmdə çox yüksək və müsbət reputasiyaya layiq olan ölkədir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçmişdir və bu da beynəlxalq aləmin bizə olan rəğbətinin, hörmətinin, dəstəyinin əlaməti idi. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, çünki ölkəmizin böyük potensialı var».

Ötən illər ərzində Azərbaycanın neft strategiyasının uğurla icra edildiyini, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verildiyini və «Şahdəniz» yatağının qazının ilk hissəsinin Türkiyəyə ixrac edilməyə başlanıldığını xatırladan Prezident İlham Əliyev 2012-ci ildə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP layihəsinə dair müqavilənin imzalanmasını, 2013-cü ildə TAP layihəsi üzrə qaz kəmərinin çəkilişinə dair anlaşmanın əldə olunmasını mühüm iqtisadi-siyasi hadisə kimi dəyərləndirib.

**Davamı 2-ci səhifədə**

## Azərbaycan Prezidentinin Amerika Birləşmiş Ştatlarına səfəri



Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə səfər ediblər.

Sentyabrın 18-də dövlətimizin başçısı səfər çərçivəsində ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderləri ilə görüşüb. Bakıda dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayan Mark Şnayer ölkəmiz haqqında həmişə zəngin təəssüratlarının olduğunu qeyd edib. Ravvin Mark Şnayer Amerikanın yəhudi icmasının rəhbəri kimi Azərbaycan Prezidentinin ölkəmizdə yəhudi icmasına verdiyi dəstəyə görə minnətdarlığını bildirib, Azərbaycan-İsrail əməkdaşlığının inkişafından məmnunluğunu ifadə edib.

«İqls Vinqs» təşkilatı ilə əlaqələrə toxunan ravvin Mark Şnayer qeyd edib ki, ABŞ-da yevangelist icmasının 100 milyondan artıq nümayəndəsi yaşayır və onların Amerika yəhudiləri və digər icmalarla yaxşı əlaqələri var.

Dövlətimizin başçısı Azərbaycanda ravvin Mark Şnayerlə keçirdiyi görüşlərə toxunaraq, həmin görüşlər zamanı faydalı fikir mübadiləsinin aparıldığını qeyd edib. Bildirib ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır, bununla yanaşı, ölkəmiz haqqında daha geniş məlumatın yayılması vacibdir. Prezident İlham Əliyev bu baxımdan bu cür görüşlərin və keçirilən tədbirlərin önəmini vurğulayıb. Azərbaycanda sabitliyin tam bərqərar olduğunu qeyd edərək bildirib ki, bunun əsas səbəblərindən biri də müxtəlif dini və etnik qrupların nümayəndələrinin ölkəmizdə sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasıdır. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan ilə İsrail arasındakı əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Dövlətimizin başçısı qeyd edib ki, bu gün Azərbaycan dünyada multikulturalizm, dini azadlıq və dinlərarası əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevrilib. Prezident İlham Əliyev bildirib ki, ötən il ölkəmizdə «Multikulturalizm İli»nin elan olunması dövlətimizin və xalqımızın mədəni, mənəvi və dini dəyərlərə sadiqliyinin təzahürüdür.

Sentyabrın 18-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında «BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək» adlı yüksək səviyyəli tədbir keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Yüksək səviyyəli tədbirdə ABŞ Prezidenti Donald Tramp çıxış edib. BMT-də islahatlara ehtiyacın olduğunu deyən ABŞ Prezidenti qurumun baş katibi Antonio Quterreşin bu istiqamətdə səylərini yüksək qiymətləndirib. D.Tramp vurğulayıb ki, bürokratiya və qeyri-səmərəli idarəçilik BMT-yə tam gücü ilə çalışmağa imkan vermir.

BMT-nin Baş katibi Antonio Quterreş dünyada çoxlu sayda insanların münaqişələrdən, aclıqdan əziyyət çəkdiklərini bildirib: «Bu insanların yardımımıza ehtiyacı var. Biz qurumda ciddi islahatlar həyata keçirməli, işimizi daha səmərəli icra etməliyik. Biz qlobal təşkilatıq və insanların bizə olan etimadını doğrultmalıyıq».

Prezident İlham Əliyev ABŞ-a səfəri çərçivəsində Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, «Bnai Brith International»ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, «Vaad L`Hatzolas Nidchei Yisroel» yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşüb. Görüşdə Azərbaycan ilə ABŞ, eləcə də Azərbaycan ilə İsrail arasında yaxşı əməkdaşlıq əlaqələrinin olduğu qeyd edilib.

Söhbət zamanı Amerika yəhudi təşkilatlarının rəhbərləri Azərbaycanda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar Azərbaycanda sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə olduğunu deyiblər, ölkəmizin multikulturalizm və tolerantlıq siyasətinə sadiqliyini yüksək qiymətləndiriblər.

## Neft şirkətləri ilə əməkdaşlıq qarşılıqlı etimada söykənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. Görüşdə ölkəmizin müəllifi olduğu irimiqyaslı enerji layihələrinin reallaşdırılmasında BP-nin fəal tərəfdaş kimi çıxış etdiyi vurğulanıb. Prezident İlham Əliyev Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə Robert Dadlinin Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif olunduğunu bildirib və ordeni ona təqdim edib.

Həmin gün dövlətimizin başçısı İlham Əliyev «Statoil» şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxerin başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib. Görüşdə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının işlənilməsi üzrə yeni Sazişin imzalanmasının əhəmiyyəti qeyd edilib, səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

## İkitərəfli əlaqələr yüksək səviyyədə inkişaf edir

Prezident İlham Əliyev sentyabrın 15-də ölkəmizdə rəsmi səfərdə olan Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu və bir çox sahələri əhatə etdiyini vurğulayaraq, bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı geniş müzakirələrin aparılması baxımından önəmini qeyd edib.

Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunmasını mühüm hadisə kimi dəyərləndirərək əminliklə bildirib ki, ötən dövr ərzində bu əlaqələr yüksək səviyyədə olub. Qeyd edib ki, Fransa Azərbaycanın çox uğurlu və çoxvektorlu siyasət həyata keçirdiyini, qonşularla əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirdiyini önəmli hesab edir.

## Paytaxtın ən məşhur məktəb-liseyi yeni görkəmdə

Sentyabrın 15-də - Bilik günündə Bakının Yasamal rayonundakı Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin yeni inşa edilmiş binasının açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edilib ki, ölkəmizin ən böyük təhsil müəssisəsi olan 20 nömrəli məktəb-liseyin binası indi paytaxtın müasir və memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir. Məlumat verilib ki, ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətdə təşkili üçün hər cür şəraitə malikdir. Burada 8 sinifdən ibarət olan Məktəbəqədər Təhsil Mərkəzi də fəaliyyət göstərəcək. Hazırda məktəb 4000 şagird yerlikdir. Yenidənqurmadan əvvəl isə bu təhsil ocağı cəmi 2500 yerlik olub. Burada 145 sinif otağı və fənn kabinetləri, həmçinin 7 laboratoriya var. Azərbaycan və rus bölmələri ilə birlikdə ümumilikdə 119 sinifdə 3300 şagird təhsil alır. Təhsil ocağında 260 müəllimdən ibarət pedaqoji heyət çalışır. Məktəbdə təşkil ediləcək «Məktəblinin dostu» layihəsi çərçivəsində müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, ilkin tibbi və psixoloji yardım göstərmək, şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə mütəmadi olaraq maarifləndirmə və diaqnostik işlər aparmaq nəzərdə tutulur.

### BU NÖMRƏMİZDƏ

MDB VERGİ XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN KOORDİNASİYA ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB 2

VERGİDƏN YAYINMA HALLARININ QARŞISININ ALINMASI MƏQSƏDİLƏ ƏLAVƏ TƏDBİRLƏR GÖRÜLƏCƏK 3

YOXLAMALARIN DAYANDIRILMASI MÜDDƏTİNİN ARTIRILMASI GÖZLƏNİLİR 4

QEYRİ-REZİDENTLƏRƏ E-İMZA VERİLMƏSİ QAYDALARI TƏSDİQLƏNİB 5

# Yeni əsrin müqaviləsi Azərbaycanın parlaq gələcəyini təmin edəcək

**Əvvəli 1-ci səhifədə**

Dövlətimizin başçısı hazırda regionda çox faydalı enerji əməkdaşlığı formatının yaradılmasına diqqət çəkərək ölkəmizin əsas tərəfdaşlarından olan BP şirkətinin fəaliyyətini xüsusi qeyd edib: «Bizimlə BP arasında əməkdaşlığımızın da 23 illik tarixi var. BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm «Azəri-Çıraq-Günəşli»də, Bakı-Tbilisi-Ceyhan layihəsində, «Şahdəniz» layihəsində, «Cənub Qaz Dəhlizi» layihəsində. Yəni, bu strateji tərəfdaşlıq artıq böyük sınaqlardan çıxıb. Bizim aramızda - SOCAR ilə BP arasında yaranmış çox gözəl işgüzar münasibətlər, qarşılıqlı etimad, o cümlədən bugünkü mərasimi mümkün etmişdir. Çünki sirr deyil ki, - mən də bunu qeyd etdim, - «Azəri-Çıraq-Günəşli» yatağının çox böyük potensialı var. Bir daha qeyd etmək istəyirəm, bugünkü hesablamalara görə, 1 milyard ton neft ehtiyatı var. Bu gün imzalanan saziş 1994-cü ildə imzalanan sazişdən daha da böyük miqyaslıdır. «Əsrin kontraktı»nın ömrü artıq sona çatır. Əlbəttə ki, kontraktın müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni kontrakt imzalaya bilərdi və bu imkanlar bizdə var idi. Ancaq BP ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər, əlbəttə ki, bugünkü seçimi şərtləndirdi. Mən buna çox şadam. Əminəm ki, bundan sonra da BP ilə SOCAR uzun illər ərzində Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin uğurunu təmin edəcəklər».




Prezident İlham Əliyev nitqində «Azəri-Çıraq-Günəşli»nin bütün tərəfdaşları ilə sıx əməkdaşlığın əhəmiyyətinə toxunaraq bildirib ki, onlar Azərbaycana böyük sərmayə qoyublar. Bugünkü qərarın qəbul edilməsində hər bir tərəfdaş şirkətin öz payı var. Onların qərarı olmasaydı, bugünkü mərasim də olmayacaqdı.

Neft və qaz gəlirlərinin səmərəli istifadə olunmasına dair uğurlu strategiyanın müəyyənləşdirildiyini və həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bu siyasətin mühüm töhfələr verdiyini, ölkəmizin çox böyük maliyyə resurslarının olduğunu qeyd edib: «1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondu bizim üçün çox önəmli bir amildir. Biz valyuta ehtiyatlarımızı artırırıq, hətta neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış bəzi çətinliklər də bizi bu yoldan döndərə bilmədi. Biz hətta bu illərdə də öz valyuta ehtiyatlarımızı artırmışıq, artıracağıq. Biz bu illərdə Dövlət Neft Fondundan məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük vəsait ayırdıq və 250 min köçkünü 100-ə yaxın yeni salınan qəsəbədə gözəl evlərlə, mənzillərlə təmin etdik. Bu proses davam edir. Eyni zamanda, biz neftdən əldə edilən gəlirləri Dövlət Neft Fondunda çox şəffaf şəkildə qoruyuruq. Dövlət Neft Fondunun fəaliyyəti çox şəffafdır. Onun fəaliyyəti, gəlirləri, xərcləri haqqında məlumat müntəzəm olaraq ictimaiyyətə çatdırılır».

Azərbaycan Prezidenti qeyd edib ki, «Əsrin kontraktı» ölkəmizə neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəltməyə, iqtisadiyyatı şaxələndirməyə imkan verib. «Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq, Azərbaycan öz neftini insan kapitalına çevirə bildi. Çünki neft həm xeyir, həm də başağrısı, problem gətirə bilər. Biz bilirik ki, dünyada neft üstündə əvvəlki dövrlərdə də, hazırda da mübarizələr, münaqişələr gedir, qan axıdılır. Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə, bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün. Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır».

Mərasimdə çıxış edən Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak, Böyük Britaniyanın dövlət naziri Alan Dunkan, Gürcüstanın energetika naziri Elia Eloşvili, Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori, BP şirkətinin baş icraçı direktoru Robert Dadli 1994-cü ildə imzalanan hasilatın pay bölgüsü müqaviləsinə əsasən «Azəri-Çıraq-Günəşli» yataqlarında neft hasilatına başlanmasını və 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsini mühüm tarixi hadisə adlandıraraq dünyanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışıblar. Natiqlər qeyd ediblər ki, bu gün Azərbaycan Avropa İttifaqı tərəfindən irəli sürülən «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçirməklə etibarlı tərəfdaşa çevrilib. «Cənub Qaz Dəhlizi»nin işə salınması ilə Türkiyə-Azərbaycan və digər ölkələr arasında əməkdaşlıq daha da güclənəcək, Avropa ölkələri və dünya bazarları çox önəmli bir qaynaq əldə edəcəklər.

Sonra Azərbaycanın neft-qaz strategiyasına həsr olunmuş videoçarx nümayiş etdirilib. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və nümayəndə heyətləri başçılarının iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalanıb. Sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, «Chevron», IMPEX, «Statoil», «ExxonMobil», «TP», ITOCHU və «ONGC Videsh» şirkətlərinin rəsmiləri imzalayıblar. Hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş sazişə əsasən, BP layihənin operatoru olaraq qalacaq. Növbəti 32 il müddətində «Azəri-Çıraq-Günəşli» yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı var. Bu Sazişin ardınca SOCAR və tərəfdaşları arasında «Azəri-Çıraq-Günəşli» müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub.

# MDB Vergi Xidmətləri Rəhbərlərinin Koordinasiya Şurasının növbəti iclası keçirilib



Bu günlərdə Qırğızıstan Respublikasının Çolpon-Ata şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Vergi Xidmətləri Rəhbərlərinin Koordinasiya Şurasının 24-cü iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Vergilər Nazirliyini nazir müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Əsasnaməyə uyğun olaraq, iclasda Koordinasiya Şurasının tərkibinə dəyişiklik edilib. Qırğız Respublikası Hökuməti yanında Dövlət Vergi Xidmətinin sədri Abdıkaimov Oktyabr Abdıkaimoviç və Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Tenqebayev Ardak Mırzabayeviç Şuraya üzv seçiliblər. Tədbirdə Koordinasiya Şurasının 23-cü iclasında qəbul edilmiş qərarların və 2016-2017-ci illər üzrə iş planının, iştirakçı dövlətlərin vergi orqanları arasında elektron məlumat mübadiləsinə dair protokol layihəsinin icra vəziyyəti və üzv ölkələrin vergi orqanları arasında əməkdaşlıq məsələləri müzakirə edilib. İclasda Azərbaycan Respublikasının nümayəndə heyəti «Elektron ticarət və vergi inzibatçılığı» mövzusunda təqdimatla çıxış edib.

Sonra prosedur qaydalarına uyğun olaraq, texniki məsələlər və işçi plan müzakirəyə çıxarılıb, «Rəqəmsal iqtisadiyyat dövründə vergi inzibatçılığı» təşkilatın növbəti, 25-ci iclasının əsas mövzusu kimi müəyyən edilib. Koordinasiya Şurasının 2017-2018-ci illər üzrə iş planı təsdiq edilib, iclasın yekun protokolu imzalanıb.

# Bütün müraciətlərə vaxtında baxılıb

2017-ci ilin avqust ayı ərzində vergi orqanlarına ötən ilin müvafiq dövrü ilə müqayisədə 35,9% çox - 8828 müraciət daxil olub. Onlardan 86,1%-i ərizə, 13,7%-i şikayət, 0,2%-i isə təklif xarakterli olub. Müraciətlərin 31,3%-i müxtəlif arayışların alınması, 42,4%-i kameral vergi yoxlamaları, 8%-i vergi borcları, 3,4%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, qalanları isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, 68,2%-i müsbət həll edilib.

Ay ərizndə vergi orqanlarında ümumilikdə 405 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

# İqtisadi əməkdaşlıq davam etdirilir

Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Müller Azərbaycan rəsmiləri ilə işgüzar görüşlər keçirib.

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Dünya Bankının dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr çərçivəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq olunması, qabaqcıl texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Dünya Bankı arasında çoxşaxəli əməkdaşlıq infrastruktur, kənd təsərrüfatı və sosial sahələri əhatə edir. Bank ölkəmizə indiyədək 53 layihə üzrə 4,15 milyard ABŞ dolları vəsait ayırıb. Artıq 41 layihə üzrə işlər başa çatıb, 11 layihə üzrə tədbirlər isə davam etdirilir.

Dünya Bankı ölkəmizdə özəl sektorun inkişafına da dəstək göstərir, indiyədək 72 layihə üzrə özəl sektora 500 milyon ABŞ dolları vəsait ayırıb. Siril Müller diqqəti Dünya Bankının Azərbaycanla əməkdaşlığının 25 illiyinə yönəldərək Azərbaycanın 2017-ci ildə mühüm irəliləyişlərin olduğunu vurğulayıb. O, uğurla icra olunan bərk məişət tullantılarının idarə edilməsinə köməyin davam etdiriləcəyini, Dünya Bankının Azərbaycanın iqtisadi inkişafına hər zaman dəstək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

# Yeni müqavilə dövlətlə yanaşı, SOCAR-ın da gəlirlərini artıracaq

Azərbaycan «Azəri-Çıraq-Günəşli» (AÇG) yataqlar bloku üzrə yeni müqavilə imzalamaqla orada qalan neft ehtiyatlarının bundan sonrakı dövrdə də kommersiya baxımından sərfəli işlənməsi imkanı əldə edib.

Bu barədə mətbuata açıqlamasında bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, Azərbaycan və onun tərəfdaşları uzun illərin danışıqları nəticəsində ortaq məxrəcə gələrək, nəhayət, belə sənədi imzalayıblar: «Heç kəs düşünməsin ki, bir tərəf kifayət qədər divident əldə edir, digər tərəf isə özünü məğlub kimi hiss etməlidir. Azərbaycan neft-qaz sənayesində xarici şirkətlər üçün münbit şərait yaratdığına görə həmişə bir örnək olub. Son 17 il ərzində AÇG-dən 125 mlrd. dollardan bir qədər artıq mənfəət əldə edilib. Birinci müqavilədə Azərbaycan hasilat başlayandan 2 ildən bir qədər artıq dövr müddətində mənfəətə çatmışdı. Hazırkı müqavilə ilə Azərbaycan faktiki olaraq hasilat başlayan kimi mənfəətini almaqda davam edəcək».

Ekspert onu da vurğulayıb ki, hasilat başlayan kimi mənfəətin alınması müqavilənin üstünlüyüdür və yeni müqavilə ilə dövlətdən əlavə, SOCAR-ın da gəliri kifayət qədər artacaq: «Əvvəllər SOCAR-ın enerji layihələrinə dövlət dəstək verirdi. İndi şirkət öz layihələrini maliyyələşdirmək imkanı qazanacaq və dövləti bu yükdən azad etmiş olacaq. Dövlət isə bunun nəticəsində həmin gəlirləri digər layihələrə və qeyri-neft sektoruna yönəltmək imkanı əldə edəcək».

Ekspert həmçinin qeyd edib ki, AÇG-dən indiyə qədər hasil olunmuş mənfəət neftinin satışından Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) 125 mlrd. dollardan çox vəsait daxil olubsa, növbəti müddətdə bu vəsait 150 mlrd. dollardan az olmayacaq: «Baxmayaraq ki, növbəti müddətdə neftin maya dəyəri artacaq, amma hesab edirəm ki, AÇG üzrə mənfəət neftinin satışından ARDNF-yə daxil olan vəsaitin həcmi bəlkə də 150 mlrd. dollardan da çox olacaq. Burada, təbii ki, hər şey neftin qiymətindən asılıdır».

# Yeni tvinninq layihəsi uğurla icra edilir

Vergilər Nazirliyinin Çağrı Mərkəzində «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsinə dəstək» layihəsi çərçivəsində təlim təşkil edilib. Azərbaycan tərəfindən layihə rəhbəri, vergilər nazirinin müşaviri Elçin Məmmədov bildirib ki, yeni tvinninq layihəsinin icrasına başlanılması Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında səmərəli əməkdaşlığın real nəticəsidir. Aİ-nin maliyyə dəstəyi ilə həyata keçirilən bu layihə vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır.

> **Aİ-nin maliyyə dəstəyi ilə həyata keçirilən layihə vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addımdır**

Layihənin məqsədi vergi orqanları tərəfindən vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsi, səmərəliliyin təmin edilməsi, xidmətlərə tələbatın müəyyən olunması, davamlı inkişaf üçün Aİ ölkələrinin qabaqcıl təcrübələrinin tətbiqidir. Layihədə əsas tərəfdaşlar İspaniya və Fransanın vergi mütəxəssisləridir. Ümumi müddəti 27 ay, büdcəsi isə 1,3 milyon avro məbləğində müəyyən edilən layihə 4 əsas komponentdən ibarətdir:

- vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı İnkişaf Proqramının yaradılması;
- xidmətlərə tələbatın müəyyənləşdirilməsi və idarə olunması;
- vergi ödəyicilərinə göstərilən xidmətlərin əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi;
- mövcüd göstəricilərin təkmilləşdirilməsi və qabaqcıl metodologiyalara əsaslanaraq bütün xidmət kanalları üzrə səmərəliliyin artırılması üçün məlumatların təhlili mexanizmlərinin yaradılması.

Cari ilin mart ayından icrasına start verilən layihə çərçivəsində İspaniya və Fransanın vergi administrasiyalarının mütəxəssisləri, eləcə də Aİ-nin ekspertləri ölkəmizə gələrək Vergilər Nazirliyinin əməkdaşları ilə öz təcrübələrini bölüşüblər. İndiyədək bir neçə dəfə seminar və təlimlər təşkil olunub.

İspaniya Krallığının iqtisadiyyat və maliyyə xidmətləri üzrə müfəttişi Jesus Miranda bildirib ki, layihəyə uyğun olaraq, cari ilin iyul ayında ekspertlər Vergilər Nazirliyinin əməkdaşlarına 3 metodologiya (EFQM, COSO və SIX SIGMA) barədə məlumat verib və gələcəkdə keçiriləcək daha detallı təlim və məşğələlərin formatının müəyyənləşdirilməsi barədə müzakirələr aparıblar. Hazırkı təlim EFQM metodologiyası üzrə bilik və təcrübənin mənimsənilməsini əhatə edir. EFQM - Avropa Keyfiyyəti İdarəetmə Fondunun əsas məqsədi dövlət orqanları tərəfindən keyfiyyətli xidmətlərin göstərilməsi və idarəetmənin müasir modellərinin tətbiqi, bu sahədə dövlət orqanı əməkdaşlarının özünüqiymətləndirmə səviyyəsinin müəyyən edilməsidir. Beynəlxalq səviyyədə müqayisə olunan bu keyfiyyət standartı çərçivəsində vətəndaşlara və biznes üzvlərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması üçün müxtəlif qiymətləndirmə metodları tətbiq olunur. Xidmət alətləri vətəndaşlar üçün aydın, sadə və anlaşıqlı şəkildə tərtib edilir, dövlət-özəl sektor nümayəndələri arasında ünsiyyətin innovativ meyarları mənimsənilir. Strategiyanın əsas məqsədi xidmət sahəsində şəffaflıq, səmərəlilik, etibarlılıq, effekivlik, hesabatlılıq, müasir idarəetmə formasının təmin olunmasıdır.

Tvinninq layihəsinin əlaqələndirici müşaviri, fransalı mütəxəssis Paskal Tomas qeyd edib ki, təşkil olunan təlimlər vergi sistemində xidmətlərin təkmilləşdirilməsinə, xidmət standartlarının qabaqcıl Avropa meyarlarına uyğunlaşdırılmasına, bütün kanallarda xidmətlərin təminatının keyfiyyətinin yüksəldilməsinə mühüm təsirini göstərəcək.

**E.CƏFƏRLİ**

# Vergidən yayınma hallarının qarşısının alınması məqsədilə əlavə tədbirlər görüləcək

## *Vergilər Nazirliyində büdcə gəlirlərinin və mövcud vergi potensialının artırılmasının təmin olunmasına həsr olunmuş toplantı keçirilib*

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri, nazirliyin Əlaqələndirmə və idarəetmə departamentinin baş direktoru İlqar Əhmədov bildirib ki, nazirliyin son kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə keçirilən kollegiyanın həmin qərarı ilə təsdiq olunmuş müxtəlif istiqamətlər üzrə işçi qrupların üzvləri, eləcə də nazirliyin aidiyyəti qurumlarının əməkdaşlarının iştirak etdiyi toplantının məqsədi kollegiyanın qərarının, kollegiya iclasında vergilər naziri Fazil Məmmədovun verdiyi konkret tapşırıqların mahiyyətinin tədbir iştrakçılarına çatdırılması, sentyabr ayı və növbəti 3 ay ərzində dövlət büdcəsinə vergi proqnozlarının icrasının təmin edilməsi yollarının müzakirəsidir. Bu məqsədlə Tədbirlər Planı hazırlanıb və vergilər naziri Fazil Məmmədovun müvafiq əmri ilə təsdiq olunub. Sənədin əsas hədəfi müxtəlif vergitutma sahələrində müəyyən edilmiş vergilərin vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə tam həcmdə və vaxtında ödənilməsini təmin etməkdir.

Vergilər nazirinin büdcə proqnozlarının icrası üzrə müşaviri, Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentinin baş direktoru vəzifəsini icra edən Habil Məmmədov vergi orqanlarının informasiya məlumat bazaları əsasında hazırlanmış Tədbirlər Planının əsas müddəaları barədə ətraflı məlumat verib. Bildirilib ki, Tədbirlər Planında 21 istiqamət üzrə görüləcək işlərin mexanizmləri müəyyənləşdirilib və bu sənədi ümumilikdə vergi siyasətinin tənzimlənməsi baxımından 2 hissə üzrə təsnif etmək olar. Birinci prioritet vergi inzibatçılığının artırılması ilə bağlı işlərin görülməsidir. Burada müxtəlif fəaliyyət sahələri və növləri üzrə vergidən yayınma hallarına dair mexanizmlərin və meyarların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə nazirliyin bütün strukturlarının əlaqələndirilmiş fəaliyyəti əsas prinsip kimi müəyyən edilib. İkinci prioritet isə büdcə proqnozlarının icrasına bilavasitə təsir edən amillər üzrə mövcud vəziyyətin dərindən təhlili və daxilolmaların təmin edilməsində müvafiq strukturların fəaliyyətində əlaqələndirmənin gücləndirilməsidir. Ümumilikdə isə hər iki hissə icmal baxımından bir hədəfə yönəlib: bu, vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinin tələblərinə riayət olunması, vergidən yayınma hallarının aradan qaldırılması, zəruri texniki işlərin görülməsi və mövcud vergi potensialı üzrə proqnoz tapşırıqlarının icrasının sürətləndirilməsidir.

Məruzəçi qeyd edib ki, ciddi vergi pozuntularının rast gəlindiyi sahələrdən olan səhiyyə sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinin vergidən yayınma hallarının aradan qaldırılması üçün nəzarət sxemləri hazırlanacaq. Kommersiya təşkilatlarının kassa əməliyyatlarının aparılması sahəsində də vəziyyət qeyri-qənaətbəxş olduğundan, mövcud halların aradan qaldırılması üçün yeni meyarların tətbiqinə ehtiyac var və bu sahədə yeni qaydaların hazırlanması nəzərdə tutulur.

Bildirilib ki, vergidən yayınma hallarının ən çox təsadüf edildiyi daha bir sahə iri dövriyyəli pərakəndə satış obyektləridir. Bir çox ticarət mərkəzlərində, supermarketlərdə məsafədənötürmə qurğularının qoyulmasına baxmayaraq, həmin qurğulardan əldə edilən informasiya mübadiləsi günün tələbləri səviyyəsində deyil. Vergi orqanı əməkdaşlarının xronometraj aparmaq imkanları vaxt və fiziki baxımdan çətinlik yaratdığından, çıxış yolu iri dövriyyəli pərakəndə satış obyeklərində elektron məsafədənötürmə qurğularının tətbiqi ilə bağlı zəruri texniki işlərin görülməsinin sürətləndirilməsidir.

Vurğulanıb ki, vergi proqnozlarının icrasına mühüm təsir edən faktorlardan biri vergi borclarının alınmasının təşkilidir. Bu məsələ ilə bağlı yeni istiqamətlər müəyyənləşdirilib, istintaq orqanları da cəlb olunmaqla vergi borclarının alınması işinin təşkilinin təkmilləşdirilməsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi planlaşdırılıb. Səyyar vergi yoxlamaları üzrə bir sıra mühüm tədbirlərin görülməsi, elektron qaimə-fakturanın tətbiqi ilə bağlı mövcud vəziyyətin dəyərləndirilməsi və yeni risk meyarları müəyyənləşdirilərək proqram təminatında elektron nəzarətin qurulması başlıca tələblərdən biridir.

Qeyd edilib ki, idxalçıların məsuliyyətinin artırılması üçün əlavə tədbirlərin görülməsi, istehsal olunan məhsul növləri üzrə istehsal obyektlərinin qruplaşdırılması və analoji vergi ödəyicilərinin göstəricilərinin müqayisəsinin aparılması, qızıl mağazaları üzrə vergi nəzarətinin gücləndirilməsi, otellər üzrə vergi öhdəliklərinə əməl edilməsi vəziyyətinin təhlili və bu sahələrdə vergidən yayınma hallarının qarşısının alınması üçün zəruri tədbirlərin görülməsi də baslıca tələblərdəndir. Həmçinin, nağd hesablaşmalar aparan vergi ödəyicilərində vergi nəzarətinin təmin edilməsi məqsədilə risk meyarlarının hazırlanması və buna uyğun tədbirlərin həyata keçirilməsi, real dövriyyəni yayındırmaq məqsədilə sadələşdirilmiş vergi ödəyicisi kimi qeydiyyata düşən, amma ƏDV ödəyicisi olmalı vergi ödəyicilərinin təhlili və aşkarlanması da əsas vəzifələrdən olacaq.

Tədbirlər Planında yer alan məsələlər sırasında vergidən yayınma hallarının ən çox təsadüf olunduğu şadlıq saraylarına vergi nəzarətinin artırılmasıdır. Görüləcək işlər, həmçinin, mebel istehsalı və satışı ilə məşğul olan vergi ödəyiciləri və iri iaşə obyektləri üzrə vergi öhdəliklərinə əməl edilməsinin təhlilini, Bakı şəhərinin mərkəzində real icarə haqqının müəyyənləşdirilməsini və bu sahədə vergidən yayınma hallarının qarşısının alınması üçün qanunamüvafiq tədbirlərin görülməsini əhatə edir.

**Elbrus CƏFƏRLİ**

# «İkitərəfli SMS» xidməti

Vergilər Nazirliyi 2012-ci ildən ikitərəfli SMS xidmətinin tətbiqinə başlayıb. Nazirliyin Çağrı Mərkəzinin fəaliyyətinin təşkili şöbəsinin rəhbəri Nicat Mehdiyev bildirmişdir ki, bu xidmət vasitəsilə abunə olmuş şəxslərə ilkin mərhələdə vergi öhdəlikləri və vergi orqanının qanuni tələbləri barədə 10 istiqamətdə, xidmətdən sorğu vasitəsilə istifadə edən şəxslərə isə 3 istiqamətdə məlumatlar göndərilirdi. İkitərəfli SMS xidməti vasitəsilə göndərilən məlumatların genişləndirilməsi məqsədilə görülmüş işlər nəticəsində 2014-cü ilin noyabrından abunə olmuş şəxslərə 11, xidmətdən sorğu vasitəsilə istifadə edən şəxslərə isə 2 əlavə istiqamət üzrə məlumatların göndərilməsi təmin edilir. Ümumilikdə abunə olmuş şəxslərə vergi öhdəlikləri və vergi orqanının qanuni tələbləri barədə 21, xidmətdən sorğu vasitəsilə istifadə edən şəxslərə isə 5 istiqamətdə məlumatlar göndərilir.

N.Mehdiyev qeyd etmişdir ki, ikitərəfli SMS xidmətinə olan marağı, eləcə də bu xidmətin əhəmiyyətini nəzərə alaraq, ondan daha səmərəli istifadə edilməsi üçün xidmətin ictimaiyyətə daha yaxından tanıtdırılması yolları müzakirə edilir. Müzakirələr nəticəsində fəaliyyəti aktiv olan 30 min vergi ödəyicisinə, eləcə də SMS xidmətindən istifadə üçün qeydiyyatdan keçmiş, lakin abunə olmamış şəxslərə ödənişsiz abunəlik xidmətinin 3 ay müddətinə aktivləşdirilməsinə dair icraçı şirkətlə razılıq əldə edilib. Əldə edilmiş razılıq nəticəsində 2016-cı ilin sonlarında 30 mindən çox vergi ödəyicisi ikitərəfli SMS xidmətindən ödənişsiz şəkildə faydalanmaq imkanı əldə etmişlər.

Xidmətdən istifadə etmək üçün mobil telefonda *195* istifadəçi kodu*şifrə# yığılmaqla «YES» (məsələn:

*195*00000541*121756#YES) düyməsi sıxılmaqla nömrə qeydiyyatdan keçirilməlidir. Sonra 8195 nömrəsinə:

- 1 yazıb göndərməklə dövlət büdcəsinə olan vergi borcu haqqında;
- 2 yazıb göndərməklə təqdim edilməli bəyannamələr barədə;
- 3 yazıb göndərməklə fəaliyyətin aktiv və ya dayandırılmış olması barədə;
- 4 yazıb göndərməklə e-qutuda oxunmamış məktubların olub-olmaması barədə;
- 5 yazıb göndərməklə qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumat almaq mümkündür.

8195 nömrəsinə göndərilmiş hər sorğuya görə nömrənin balansından mobil operator tərəfindən 10 qəpik xidmət haqqı tutulur. Xidmətə abunə olmaq üçün qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsindən START yazıb 8195 nömrəsinə SMS göndərilməlidir.

N.Mehdiyevin sözlərinə görə, büdcəyə ödəniş etdikdə, yeni borc yarandıqda, təqdim edilmiş bəyannamə üzrə vergi hesablandıqda, bəyannamə üzrə uyğunsuzluq yarandıqda, təqdim edilməli bəyannamələr olduqda, fəaliyyəti dayandırıldıqda, fəaliyyəti aktivləşdikdə, cari vergi ödəmələri barədə arayış təqdim etdikdə, cari vergi ödəmələrinin hesablanması barədə, ləğv bəyannamələri göndərildikdə və növbəti səyyar vergi yoxlaması açıldıqda vergi ödəyicisinə müvafiq mesajlar göndərilir. Bundan başqa, əlavə vergi məbləği hesablandıqda, internet vergi idarəsindəki elektron qutuya sənəd daxil olduqda, maliyyə sanksiyası tətbiq edildikdə, təsərrüfat subyekti qeydiyyata alındıqda və çıxarıldıqda, təqdim edilən bəyannamədə göstərilən fəaliyyət növü ilə bazada olan fəaliyyət növləri arasında uyğunsuzluq olduqda, ƏDV qeydiyyatına alındıqda, NKA qeydiyyata alındıqda və çıxarıldıqda, şəhadətnamə-dublikatın alınması barədə ərizə göndərildikdə müvafiq məzmunlu SMS göndərilir.

Abunə olmuş vergi ödəyicilərinin nömrəsinin balansından mobil operator tərəfindən ayda 1 manat 18 qəpik abunə haqqı tutulur.



**Çağrı Mərkəzinin statistik məlumatlarına görə, 2017-ci ilin yanvar-avqust ayları ərzində daxil olmuş sifariş məktublarına əsasən, vergi ödəyicilərinə 282.081 yazılı mesaj göndərilib, onlardan 166.067-si (58,87%) vergi ödəyicisinə çatıb**

Çağrı Mərkəzinin statistik məlumatlarına görə, 2017-ci ilin yanvar-avqust ayları ərzində daxil olmuş sifariş məktublarına əsasən, vergi ödəyicilərinə 282.081 yazılı mesaj göndərilmiş, onlardan 166.067-si (58,87%) vergi ödəyicisinə çatmışdır. Vergi ödəyicilərinin onlayn kargüzarlığında oxunmamış məktub olması haqqında onların mobil telefonlarına SMS göndərməklə məlumat verilməsi xidməti üzrə 2017-ci ilin yanvar-avqust aylarında 892.710 SMS göndərilmişdir. İkitərəfli mesaj xidməti çərçivəsində 2017-ci ilin avqust ayı ərzində vergi ödəyicilərinə 73.302 SMS göndərilmişdir ki, onların da əsas istiqamətləri aşağıdakı kimi olmuşdur:

- İnternet Vergi İdarəsində vergi ödəyicisinin elektron qutusuna sənəd daxil olduqda;
- Vergi ödəyicisi büdcəyə ödəniş etdikdə;
- Vergi ödəyicisinin təqdim etdiyi bəyannamə üzrə vergi hesablandıqda;
- Bəyannamə üzrə uyğunsuzluq yarandıqda;
- Vergi ödəyicisinin təqdim edilməli bəyannamələri olduqda;
- Vergi ödəyicisinə əlavə vergi məbləği hesablandıqda;
- Vergi ödəyicisinin yeni borcu yarandıqda;
- Vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edildikdə;
- Vergi ödəyicisi fəaliyyətini dayandırdıqda.

**Fəxriyyə İKRAMQIZI**




# Azərbaycan iqtisadiyyatı yeni strateji xətt üzrə inkişaf etdiriləcək

*«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşdirilib. 2017-ci ildə Azərbaycanda büdcənin hazırlanması mexanizminin ortamüddətli xərclər çərçivəsinə uyğun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması və büdcə resurslarının sektorlararası və sektorlardaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd qoyulub. Həmin məqsədlərin gerçəkləşməsində aparılan vergi siyasəti də ölkədə gedən iqtisadi proseslərlə ahəngdar şəkildə uyğunlaşdırılır.*

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşdirilib. 2017-ci ildə Azərbaycanda büdcənin hazırlanması mexanizminin ortamüddətli xərclər çərçivəsinə uyğun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması və büdcə resurslarının sektorlararası və sektorlardaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd qoyulub. Həmin məqsədlərin gerçəkləşməsində aparılan vergi siyasəti də ölkədə gedən iqtisadi proseslərlə ahəngdar şəkildə uyğunlaşdırılır.

### *Vergi islahatları davam etdiriləcək*

Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur. Bu hədəflərə doğru irəliləmək məqsədilə digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndiriləcək.

Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək. İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçirilir.

### *Yeni ticarət palataları təsis ediləcək*

Hər bir regionda sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi və onlara dəstək göstərilməsi üçün ticarət palatalarının yaradılması imkanları nəzərdən keçirilir. Ticarət palataları dövlətlə sahibkar arasında körpü rolunu oynayacaq və öz üzvlərinə beynəlxalq təcrübəyə uyğun xidmətlər göstərəcək. Sahibkarların ticarət palatalarına inamını möhkəmləndirmək üçün müvafiq addımlar atılacaq, qabaqcıl ölkələrdə olduğu kimi, palatalara konsultativ statusun verilməsi nəzərdən keçiriləcək. Bu, hazırlanan qanun layihələri ilə bağlı palatalarla məsləhətləşmələrin aparılmasına və dövlət orqanları yanında ictimai şuralarda ticarət palatalarının üzvlərinin iştirakına şərait yaradacaq.

Palatalar təsis edilərkən onların qarşısına qoyulan vəzifələr, ilk növbədə, ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin qarşılaşdığı problemlərin aradan qaldırılması və bununla sahibkarların inamının artırılması olacaq. Palatalara üzv şirkətlərin ixrac imkanlarının artırılması, bazarda zəif mövqeyə sahib şirkətlər üçün yeni ideyaların verilməsi, maliyyə vəsaitlərinə əlçatanlığın təmin olunması diqqətdə saxlanılacaq.

### *Biznes assosiasiyalarının yaradılması təşviq olunacaq*

Azərbaycanda dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi üçün mövcud qanunvericilik bazası təhlil ediləcək və müvafiq təkmilləşdirmələr üçün təkliflər irəli sürüləcək. Bu islahatlar, əsasən, sahibkarları təmsil edən qurumların hüquqi statusu, onların maraqlarını ifadə imkanları, dövlətlə özəl sektor arasında konstruktiv dialoqun qurulması və digər əlaqəli məsələləri əhatə edəcək.

Strateji Yol Xəritəsinə əsasən, 2017-2018-ci illərdə ölkədə biznes assosiasiyalarının gücləndirilməsi planlaşdırılır. Azərbaycanda biznes assosiasiyalarının qanunvericilik bazasının öyrənilməsi, onların hüquqi statusunun bir daha nəzərdən keçirilməsi və müvafiq təkliflərin verilməsi ilə yanaşı, Azərbaycan üçün strateji əhəmiyyət daşıyan sahələr üzrə biznes assosiasiyalarının yaradılması təşviq ediləcək. Assosiasiyaların yaradılması və onların maliyyə dayanıqlığının təmin edilməsi mexanizmləri hazırlanacaq və sahibkarların bu assosiasiyalara inamını gücləndirmək üçün müvafiq tədbirlər görüləcək.

Bu planın həyata keçirilməsi nəticəsində dövlətlə özəl sektor arasında münasibətlərin tənzimlənməsi sahəsində daha təkmil addımlar atılacaq, ölkədə dövlət-özəl tərəfdaşlığı yeni mərhələyə qədəm qoyacaq. Qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində Azərbaycanda dövlət-özəl əməkdaşlığının tam institusionallaşması təmin ediləcək. Onu da qeyd edək ki, bu prioritetlərin icrası üçün əsaslı investisiya qoyuluşu tələb olunmur.

### *Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb*

Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı komissiya yaradılıb. Komissiya çərçivəsində «Əmtəə bazarının səmərəliliyi və rəqabət» istiqaməti üzrə işçi qrup təşkil edilib və Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb. Məqsəd ölkədə rəqabət mühitinin təkmilləşdirilməsi istiqamətində işlərin sürətləndirilməsidir. Strateji Yol Xəritəsinin yarımillik hesabatında da Rəqabət Məcəlləsinin qəbul edilməsi və institusional islahatların aparılması istiqamətində işlərin sürətləndirilməsi tövsiyə olunub.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaq vergisi

***Mülkiyyətimdə Mingəçevir şəhərində yerləşən ticarət-məişət xidməti təyinatlı 2 ayrı torpaq sahəsi vardır. Həmin torpaq sahələrinə görə torpaq vergisi necə hesablanır?***

Vergi Məcəlləsinin (VM) 203.1-ci maddəsinə əsasən, torpaq vergisi, torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir (VM, maddə 204).

Digər şəhərlərdə və rayon mərkəzlərində yerləşən sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqların tutduğu torpaqların hər 100 m²-nə görə torpaq sahəsi 10000 m²-dək olduqda 4 manat, 10000 m²-dən yuxarı olan hissə üçün isə 8 manat olmaqla hesablanır (VM, maddə 206.3).

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin mülkiyyətində və ya istifadəsində eyni təyinatlı və eyni vergi dərəcəsinin tətbiq olunduğu torpaq sahələri olduğu halda və həmin torpaq sahələrinin cəmi 10000 m²-dən yuxarı olduqda, həmin torpaqlara görə torpaq vergisi proqressiv vergi dərəcələri tətbiq edilməklə hesablanır. Beləliklə, Mingəçevir şəhərində yerləşən ticarət-məişət təyinatlı torpaq sahəsi 10000 m²-dək olduqda həmin torpaq sahəsinin hər 100 m²-nə görə 4 manat, 10000 m²-dən yuxarı olan hissə üçün isə 8 manat məbləğində torpaq vergisi hesablanır.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

# Yoxlamaların dayandırılması müddətinin artırılması gözlənilir

Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan «Sahibkarlıq fəaliyyətində yoxlamaların dayandırılması haqqında» Qanun layihəsinin parlamentdə qəbul edilməsindən sonra 2015-ci il noyabrın 1-dən sahibkarlıq subyektlərində yoxlamalar iki il müddətinə dayandırıldı. Qanunun müddəalarına əsasən, iki il ərzində yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparılmalıdır. Həmin yoxlamalar isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla həyata keçirilir.

Qeyd edək ki, bu qanun vergi yoxlamalarına şamil olunmasa da, Vergilər Nazirliyinin kollegiya iclasının qərarı ilə kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi də müvəqqəti olaraq azaldılıb. Burada kiçik və orta bizneslə məşğul olan sahibkarlar dedikdə, illik dövriyyəsi 200 min manatdan aşağı və sadələşdirilmiş vergi ödəyiciləri olan sahibkarlıq subyektləri nəzərdə tutulur. Həmin sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır. Operativ nəzarət tədbirləri zamanı isə əmək müqavilələrinin bağlanmasına, vergi ödəyicilərinin dövriyyəsinin müəyyənləşdirilməsi məqsədilə xronometraj metodu ilə yoxlamaların keçirilməsi və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət istisna olmaqla, digər yoxlamaların keçirilməsi məhdudlaşdırılıb. Bu məhdudlaşdırmadan sonra vergi yoxlamaları təxminən iki dəfə azalıb.

Kiçik və orta sahibkarlıq subyektlərinin büdcə daxilolmalarında xüsusi çəkisi böyük olmadığı üçün yoxlamaların dayandırılmasının büdcə gəlirlərinə əhəmiyyətli təsiri olmayıb. Ölkəmizdə vergi siyasətinin əsas məqsədi vergi ödəyiciləri ilə münasibətlərin partnyorluq səviyyəsində olması, kiçik və orta biznesin inkişafı, onlarla nəzarətdən çox əməkdaşlıq münasibətlərinin yaradılmasıdır.

Bütün bu müsbət tendensiyalar nəzərə alınaraq, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddətinin yenidən artırılması nəzərdə tutulur. «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin yarımillik monitorinq və qiymətləndirmə hesabatında qeyd olunub ki, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanunun tətbiqindən sonrakı 20 ay ərzində vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində cəmi 96 yoxlama, o cümlədən 2017-ci ilin ilk 6 ayı ərzində 26 yoxlama keçirilib. Yoxlamaların dayandırılmasından əvvəlki 20 ay ərzində isə vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində keçirilmiş yoxlamaların sayı 100 mindən çox olub...

Ölkədə sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının növbəti müddətə artırılması üçün qanunvericilik aktlarının layihələri hazırlanıb və baxılması üçün aidiyyəti qurumlara təqdim edilib. Yaxın vaxtlarda bu məsələ ilə bağlı yeni qərarların qəbul olunacağı gözlənilir.

> Vergi siyasətinin əsas məqsədi vergi ödəyiciləri ilə münasibətlərin partnyorluq səviyyəsində olması, kiçik və orta biznesin inkişafı, onlarla nəzarətdən çox əməkdaşlıq münasibətlərinin yaradılmasıdır

**Rəşad SADIQOV**

# Strateji yol xəritələrinin monitorinqi biznes mühitinə öz töhfəsini verəcək

Azərbaycanda Amerika Ticarət Palatası («AmCham») «Azərbaycanın milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin monitorinqinin aparılması və qiymətləndirmə hesabatlarının nəticələrini müsbət dəyərləndirib.

«AmCham»ın icraçı direktoru Natəvan Məmmədova qeyd edib ki, qlobal və regional səviyyədə mürəkkəb iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə ölkəmizdə sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir: «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» bu baxımdan mühüm əhəmiyyət kəsb edir, islahatların davamlılığı üçün geniş zəmin yaradır, təkcə qısamüddətli deyil, həm də orta və uzunmüddətli hədəflərə çatmağa imkan verir.

Qeyd olunub ki, strateji yol xəritələrinin açıq monitorinqinin aparılması və nəticələrin ictimaiyyətə təqdim edilməsi mütərəqqi bir haldır və müvafiq dövlət qurumlarının qarşısına qoyulmuş tədbirlər planının icrasının vəziyyəti barədə təfərrüatlı məlumat əldə etməyə imkan verir: «Strateji yol xəritələrində nəzərdə tutulan işlər üzrə qiymətləndirmənin aparılması xəritələrin təsdiq edilməsindən sonra hesabat xarakterli həyata keçirilmiş ilk belə hal olaraq xüsusi əhəmiyyət kəsb edir. Hər bir iqtisadi sahə üzrə müəyyən edilmiş hədəflərə çatmaqda əlaqələndirmənin və koordinasiyanın təmin edilməsinə səbəb olur. Yol xəritələri üzrə bu cür monitorinq və qiymətləndirmə sisteminin qurulması «Açıq hökumət» prinsipinə tam uyğundur və bu təşəbbüsün həyata keçirilməsi yol xəritələrinin reallaşması prosesində şəffaflıq, hesabatlılıq və səmərəliliyin təmin edilməsi baxımından olduqca təqdirəlayiqdir. Monitorinq və qiymətləndirməyə uyğun olaraq, hər bir istiqamət üzrə mövcud problemlərin göstərilməsi, tövsiyələrin verilməsi hesabata obyektiv yanaşmanın, şəffaflığın nümunəsi hesab edilə bilər. Monitorinqlər Strateji Yol Xəritəsinin icrasına dair məlumatların yerli və beynəlxalq ictimaiyyətlə bölüşdürülməsinə, həmçinin bu sahədə tələb olunan investisiyanın cəlb edilməsinə şərait yaradacaq ki, bu da bütövlükdə ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət göstərəcək».

«AmCham»ın icraçı direktoru hesab edir ki, ölkəmizdə aparılan iqtisadi islahatlarla bağlı mühüm sənədlərin hazırlanmasında, qanunvericiliyin təkmilləşdirilməsində və islahatların aparılmasında biznes ilə hökumət arasında birbaşa dialoq sahibkarlığın inkişafına töhfəsini verir: «AmCham» strateji yol xəritələrinin hazırlanmasında iştirak etmiş bir qurum olaraq hesab edir ki, iqtisadi qanunvericiliyə dəyişikliklər edilən zaman biznes nümayəndələrinin, onları öz ətrafında birləşdirən sahibkarların ictimai təşkilatlarının, o cümlədən 260-dan çox xarici və yerli investorun bir araya gəldiyi «AmCham»ın təkliflərinin nəzərə alınması islahatların həyata keçirilməsində biznesin fəal iştirakının göstəricisidir. Bu baxımdan, strateji yol xəritələrinin icra vəziyyəti ilə bağlı biznes sektorunun nümayəndələrinin açıq iştirakının və şəffaf yanaşmanın təmin edilməsi dövlət-biznes sektoru arasında yaranmış platformanı daha da möhkəmləndirəcək. İnanırıq ki, həm yarımillik, həm də illik təqdim olunacaq hesabatlar strateji yol xəritələrində nəzərdə tutulmuş tədbirlərin vaxtında və effektiv icra edilməsinə rəvac verəcək. Palata aparılan monitorinqin nəticələrinin mütəmadi olaraq öz üzvlərinə çatdırılmasında və tərtib edilmiş hesabatlar üzrə müzakirələrdə iştirak etməkdə maraqlıdır».

> Strateji yol xəritələrinin açıq monitorinqinin aparılması və nəticələrin ictimaiyyətə təqdim edilməsi mütərəqqi bir haldır və müvafiq dövlət qurumlarının qarşısına qoyulmuş tədbirlər planının icrasının vəziyyəti barədə təfərrüatlı məlumat əldə etməyə imkan verir

**E.CƏFƏRLİ**

# Vergi texnologiyaları əsasında təcrübə mübadilələri davam edir

Sentyabrın 12-13 tarixlərində «PricewaterhouseCoopers» beynəlxalq konsaltinq şirkəti «Microsoft» ilə birgə Azərbaycan Respublikası Vergilər Nazirliyi üçün «Blokçeyn» texnologiyaları mövzusunda seminar təşkil edib. Təlim Vergilər Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq olunmuş «Vergi sahəsində aparılan islahatların tətbiqi ilə bağlı Tədbirlər Planı»nın icrası çərçivəsində keçirilib.

Tədbiri giriş sözü ilə açan Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə bildirib ki, Vergilər Nazirliyi dünya vergi sistemində müasir çağırışları və əsas təmayülləri yaxından izləyir və beynəlxalq təcrübənin öyrənilməsinə önəm verməklə yeniliklərin tətbiqinə çevik reaksiya verməyə çalışır. Xüsusi əhəmiyyət daşıyan bu təlimdə vergi inzibatçılığında qlobal meyillər və rəqəmsal transformasiyalar, vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında müasir texnologiyalardan istifadə edilməsi, blokçeyn və onun mövcud potensialı, Vergilər Nazirliyinin rəqəmsal transformasiya istiqamətində fəaliyyəti və s. kimi məsələlərin müzakirəsi nəzərdə tutulur.

PwC Qlobal Vergi İdarəetməsi üzrə Məsləhət Xidmətləri komandasını və «Microsoft» şirkətini təmsil edən mütəxəssislər seminar iştirakçılarına vergi hesabatlarının qanunvericiliyə uyğun hazırlanması, iqtisadiyyatın rəqəmsallaşması sahəsində ən son tendensiyalar və onun vergi sistemi və idarəetməsinə təsiri ilə bağlı məlumatla yanaşı, yeni texnoloji həll yollarından istifadə etməklə effektiv vergi idarəetmə sisteminin yaradılmasına dair praktiki məsləhətlər veriblər. Seminarda məlumatların real iş rejimində daha geniş auditoriyaya çatdırılması, eləcə də vergi ödəyiciləri və vergi orqanlarının həmin məlumatların düzgünlüyünə etibar edə biləcəyi sistemin yaradılmasında blokçeyn texnologiyasının imkanları müzakirə edilib.

İnteraktiv sessiyalar zamanı PwC beynəlxalq konsaltinq şirkətinin Niderland ofisinin idarəedici partnyorunun nümayəndəsi Eelko van der Enden «Beynəlxalq vergitutmada əsas meyillər və rəqəmsal transformasiya» mövzusunda təqdimatla çıxış edərək bildirib ki, təmsil etdiyi şirkət iqtisadiyyatın rəqəmsallaşdırılmasını və bu tendensiyanın vergi sistemi və inzibatçılığına dair ən müasir istiqamətlərini təmin edir. O, vergi sahəsində səmərəli idarəetmə sisteminin qurulması üçün müasir texnologiyalar barədə də ətraflı məlumat verib.

Seminarın gedişində «Microsoft» şirkətinin nümayəndəsi Emin Axundov «Vergi texnologiyalarının ekosistemi» mövzusunda təqdimatla çıxış edib.

Təlimin ilk günündə mütəxəssislər yeni texnoloji həll yollarından istifadə etməklə səmərəli vergi idarəetmə sisteminin yaradılmasına dair praktiki məsləhətlər veriblər. Məlumatların real iş rejimində daha geniş auditoriyaya çatdırılması, eləcə də vergi ödəyiciləri və vergi orqanlarının həmin məlumatların düzgünlüyünə etibar edə biləcəyi sistemin yaradılmasında blokçeyn texnologiyasının imkanları ayrıca müzakirə edilib.

Təlimin ikinci günü blokçeyn texnologiyalarının vergi yığımlarında tətbiqi imkanları ekspertlərlə birgə müzakirə edilib, bu texnologiyaların müxtəlif sferalarda tətbiqini həyata keçirən bir sıra ölkələrin təcrübəsi diqqətə çatdırılıb. Həmçinin, dünya vergi administrasiyaları tərəfindən populyar kriptovalyutaların (bitkoin, eterium və digərləri) vergitutmaya cəlb edilməsi imkanları müzakirə edilib. Təlim zamanı kriptovalyutanın elektron ticarətdə geniş yayılmasının aktuallığı, kriptovalyuta dövriyyələri üzərində vergi orqanlarının monitorinqi, məlumatların toplanması və gələcəkdə dövlət tərəfindən bu sahənin tənzimləmə üsulları barədə geniş fikir mübadiləsi aparılıb.

**Fəxriyyə İKRAMQIZI**

## Blokçeyn texnologiyaları

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsinin rəhbəri Eldar Babazadənin sözlərinə görə, blokçeyn bir çox ölkələrin elektron hökumət idarəetmə təcrübəsində istifadə edilən müştərək verilənlər bazasıdır: «Burada müştərək dedikdə, verilənlər bazasının saxlanma qurğularının vahid prosessor vasitəsilə bir-biri ilə əlaqəli olmaması nəzərdə tutulur. Blokçeyn nizamlı qeydlərin, yəni blokların artan zəncirini özündə birləşdirir. Hər blokun öz qeydiyyat tarixi və əvvəlki bloka istinadı vardır ki, bununla da onların unikallığı təmin edilir.




Kriptoqrafiya vasitəsilə istifadəçilərin həmin bloklar zəncirinin yalnız onlara «məxsus» hissəsini dəyişdirmək imkanı təmin edilir. İstifadəçilər yalnız özəl açarlar vasitəsilə həmin hissələrə düzəlişlər edə bilirlər. Həmçinin, kriptoqrafiya hər bir istifadəçinin paylanmış blokçeyn surətinin sinxronluğunu da təmin edir».

E.Babazadə bildirib ki, blokçeyn texnologiyasının konsepsiyası 2008-ci ildə «bitcoin» elektron valyutaları ilə əməliyyatların aparılması məqsədilə irəli sürülüb və 2009-cu ildə ilk dəfə istifadəyə verilib: «Quruluş baxımından blokçeynlər təhlükəsiz məlumat bazası sayılır və bütün «bitcoin» əməliyyatları üçün dövlət reyestri hesab edilir. Blokçeyn sisteminin istifadə edilməsi ilə «bitcoin» rəqəmsal valyutasının iki dəfə xərcləmə məsələsinə səlahiyyətli orqan və ya mərkəzi server olmadan həll yolu tapılıb. Xatırladaq ki, fiziki sikkələr və jetonlardan fərqli olaraq, elektron valyutaların dublikatının çıxarılması və ikinci dəfə istifadəsi mümkün deyil. Blokçeyn sistemi aşağıdakı qanunlara əsasən işləyir:

1. Yeni əməliyyatlar bütün düyünlər üzrə paylanılır.
2. Hər bir düyün gələn əməliyyatları blokda birləşdirir.
3. Hər düyün cari mürəkkəbliyi təmin edən uyğun haş blok seçir.
4. Bu cür haş tapıldıqda blok şəbəkəyə yönləndirilir.
5. Düyünlər həmin bloku yalnız ondakı bütün əməliyyatlar düzgün olduqda və artıq xərclənmiş vəsaitlər istifadə edilmədikdə qəbul edir.
6. Düyünlər növbəti blokla işləyərək və yeni istinad veriləni kimi əvvəlki blokun haşından istidafə etməklə yeni verilənləri qəbul etmiş olur».

Ümumiyyətlə, blokçeyn texnologiyasının desentralizasiya, ictimaiyyətə açıqlıq, yeni blokların yaradılması üçün istifadəçilər arasında razılıq və zəncirdə iştirakı iqtisadi mənfəətli edən mükafatlandırma kimi bir sıra müsbət tərəfləri vardır. Texniki olaraq bu elə bir platformadır ki, istifadəçilərin heç bir vasitəçi olmadan hər hansı bir subyekt üzrə razılığa gəlməsinə imkan yaradır.

# Qeyri-rezidentlərə e-imza verilməsi qaydaları təsdiqlənib

**Prezident İlham Əliyev Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə e-imzanın verilməsi qaydasını və «Azexport.az» portalının əsasnaməsini təsdiq edib.**

Portalın rəhbəri Zaur Qardaşov bildirmişdir ki, qurumun nəzdində yaradılmış Rəqəmsal Ticarət Qovşağının faydalı və innovativ funksiyalarından biri də qeyri-rezidentlərə e-imzaların verilməsidir: bu ideya Azərbaycana xarici investisiyaların cəlb olunmasına yönəlib. Elektron-imza qeyri-rezidentlərin burada açdıqları müəssisələri uzaqdan idarə etməyə imkan verir. Qaydalara uyğun olaraq, istənilən əcnəbi Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə bu imzanı fiziki olaraq əldə edə biləcək. Qaydalarda qeyd olunduğu kimi, bütün güc strukturları birlikdə üç gün müddətində müraciət edənin sənədlərini yoxlayaraq öz fikirlərini bildirirlər. Əgər heç bir irad yoxdursa, həmin əcnəbiyə avtomatik olaraq virtual kimlik verilir.

Z.Qardaşov qeyd etmişdir ki, e-imzaların verilməsində əsas məqsədlərdən biri «Azexport» saytı üzərindən sifarişlərin sayının artımı və onların rəsmiləşdirilməsinin asanlaşdırılmasıdır: «Bu gün Azərbaycanda rəsmi qurumlar 450-dən çox e-xidmət təklif edirlər. Bundan əlavə, Vergilər Nazirliyi e-imzanı əldə etmiş əcnəbilərə şirkəti onlayn qeydiyyatdan keçirmək imkanı yaradıb. Təbii ki, şirkəti idarə etmək və hesabatları təqdim etməklə bağlı da bütün imkanlar mövcuddur.

> E-imzaların verilməsində əsas məqsədlərdən biri «Azexport» saytı üzərindən sifarişlərin sayının artımı və onların rəsmiləşdirilməsinin asanlaşdırılmasıdır

Növbəti mərhələ isə rəqəmsal iqtisadiyyatın qurulması üçün bir başlanğıcdır. MDB məkanında və ümumiyyətlə dünyada ticarətdə sərhəd anlayışının aradan qaldırılması imkanı çox az ölkədə yaradılıb. Nəzərə alsaq ki, azərbaycanlılar beynəlxalq transsərhəd ticarətdə iqtisadiyyatın bu növünə meyillidirlər, deməli, növbəti mərhələdə bu portal iqtisadiyyatın böyük bir hissəsini ələ ala biləcək və transsərhəd ticarətini inkişaf etdirəcək».

«Azexport.az» portalı ixracatçıya dəstək funksiyasını yerinə yetirir, onların məhsullarını digər beynəlxalq portallar vasitəsilə dünya bazarlarında tanıdır. Mütəxəssisin sözlərinə görə, indiyədək yarım milyondan artıq insan yeni bazarlarda Azərbaycan məhsullarını görüb, tanıyıb və portala sifarişlərini ünvanlayıb: «İndiki mərhələdə ticarətin əhatə dairəsi genişləndiyi üçün məsuliyyətimiz bir az da artıb. Bu gün ölkəyə investisiyaların cəlb olunması üzərində çalışırıq. Qaydalarda elektron pul kisəsinin yaradılması nəzərdə tutulur ki, bu da sahibkarlara rahat ödəniş imkanı yaradan yeni bir maliyyə alətidir. Qeyri-rezidentlərlə yanaşı, xaricdə yaşayan milyonlarla azərbaycanlı da bu imkandan yararlana biləcək».

Z.Qardaşovun sözlərinə görə, bu gün Azərbaycanda dövlət tərəfindən ixraca dəstək və təşviq mexanizmlərinin hamısı mövcuddur: «Azexport» portalı da standart paketdən kənara çıxan yeni bir əlavə dəstək planıdır və öz fəaliyyətində ortaya müsbət nəticələr qoya bilib. İxraca Dəstək Mərkəzi artıq neçə aydır fəaliyyət göstərir. Burada ixracatçı «bir pəncərə» prinsipi ilə bütün ixrac icazələrini, o cümlədən gömrük bəyannaməsini tərtib edib məhsulunu yola sala bilir. Mərkəzin elektron variantı isə Rəqəmsal Ticarət Qovşağıdır. Bu qovşaq vasitəsilə bir ərizə əsasında orta hesabla 10-11 ünvandan icazələr, sertifikatlar, şəhadətnamələr verilir. İxrac prosesi başa çatdıqdan sonra ixrac təşviq məbləğini ixracatçı mərkəz vasitəsilə geri ala bilir».

«Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası»nın və «www.azexport.az» internet portalı haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə ölkə Prezidentinin fərmanında Azərbaycanda sərbəst satış sertifikatının veriləcəyi göstərilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Zənura Talıbovanın sözlərinə görə, sərbəst satış sertifikatı ixracatçıların müraciəti əsasında yalnız Azərbaycanda istehsal olunan mallara veriləcək: «İxracatçılar tərəfindən sərbəst satış sertifikatının əldə olunması könüllü xarakter daşıyacaq. Sertifikat ixrac edilən malın Azərbaycanda sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyən sənəddir. «Azexport»un fəaliyyəti çərçivəsində müəyyən olunub ki, Azərbaycan məhsullarının keyfiyyətinə əlavə olaraq zəmanətin təmin edilməsi ilə bağlı mütəmadi şəkildə xarici tərəfdaşlar tərəfindən dünyada geniş yayılmış sərbəst satış («Free sales») sertifikatları tələb edilir. Sertifikat mahiyyət etibarilə ölkə daxilində məhsula əvvəlcədən müxtəlif qurumlar tərəfindən verilmiş sertifikatların (keyfiyyət, gigiyenik, uyğunluq və s.) qüvvədə olmasını və həmin məhsula hazırda ölkə daxilində sərbəst satış üçün bütün icazələrin verildiyini təsdiq edir. Sertifikatın verilməsi proseduru heç bir əlavə laboratoriya analizlərinin və ya testlərin keçirilməsi ilə müşayiət olunmur. Dünya təcrübəsində sərbəst satış sertifikatı malların hər bir partiyasına verilir. Məhsul xarici ölkələrə göndərilirsə, sertifikat həmin ölkənin dövlət dilində və ingilis dilində verilir».




MDB ölkələri arasında bu cür sertifikatları hazırda yalnız Ukrayna və Rusiya təklif edir. Ukraynada sertifikatların verilməsini Sənaye və Ticarət Palatası, Rusiyada İxraca Dəstək Mərkəzi həyata keçirir. Türkiyədə sertifikatın verilməsi məhsullara görə fərqlənir, sertifikat əsasən Gömrük və Ticarət Nazirliyinin akkreditə etdiyi konsaltinq şirkətləri tərəfindən təqdim olunur.

Z.Talıbovanın sözlərinə görə, Azərbaycanda sərbəst satış sertifikatının verilməsi «Made in Azerbaijan» brendinin təşviqi və qeyri-neft ixracının artımı üçün əlavə təkan olacaq. Sertifikatı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi təqdim edəcək.

**F. İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Sentyabrın 15-də «Büdcə sistemi haqqında» Qanuna və «Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi layihəsinin hazırlanması ilə bağlı» Nazirlər Kabinetinin 2017-ci il 25 yanvar tarixli sərəncamına uyğun olaraq, 2018-ci il dövlət büdcəsinin və icmal büdcənin layihələri, habelə növbəti üç il üçün icmal büdcənin göstəriciləri Nazirlər Kabinetinə təqdim edilib.

Mərkəzi Bankın İdarə Heyəti sentyabrın 18-də uçot dərəcəsinin və faiz dəhlizinin digər parametrlərinin dəyişməz saxlanılması (uçot dərəcəsi 15 faiz, dəhlizin aşağı həddi 10 faiz, yuxarı həddi 18 faiz) barədə qərar qəbul edib.

Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Azərbaycanda 56 özəl layihəyə 470 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

Cari ilin yanvar-avqust aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 6 milyard 19,5 milyon manat vəsait yönəldilib.

2017-ci il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 524,9 min nəfər olub, onlardan 879,0 mini iqtisadiyyatın dövlət sektorunda, 645,9 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Azərbaycanın iqtisadi ticarət tərəfdaşlarının sayı 180 ölkəyə çatıb.

# Azərbaycanda turizm sektoruna diqqət artırılır

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində Azərbaycanın perspektivli və potensial üstün sahələri müəyyənləşdirilib. Bu sahələr arasında turizm də mühüm yer tutur.

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinin yanvar-iyun ayları ərzində icra vəziyyətinə baxdıqda görərik ki, ümumi nəticə 14% olmaqla, qarşıya qoyulan hədəflərə:

- xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsinə 17%;
- turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılmasına 17%;
- yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsinə 9%;
- turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılmasına isə 11% əməl olunmuşdur.

Bu ilin ilk yeddi ayının statistik mənzərəsinə görə, ölkəyə 1 milyon 513 min turist gəlib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 24 faiz artım deməkdir. İyul ayında Azərbaycana digər aylarla müqayisədə daha çox - 330 min turist gəlib. Azərbaycana gələn turistlərin sayına görə Rusiya birincidir: bu ölkədən gələnlərin sayı 500 minə yaxın olub. Körfəz ölkələrindən gələn turistlərin sayında da ciddi artım müşahidə olunur. Qonşu ölkələrdən - Gürcüstan və Türkiyədən, eləcə də İrandan gələn turistlərin sayında da müəyyən artım nəzərə çarpır.

Mədəniyyət və Turizm Nazirliyinin informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədov turizmdən gələn gəlirin ümumi daxili məhsulun 4,1 faizini təşkil etdiyini vurğulayaraq diqqəti ölkəyə gələn turistlərin xərclədikləri vəsaitə yönəldib: «Ölkəyə gələn turistlərin qalma müddətinə baxdıqda, ən az 5-7 günlük səfər proqramları təşkil etdikləri görünür. Onlar bu müddətin 3-4 gününü Bakıda, qalan günlərini isə paytaxta yaxın olan regionlarda keçirirlər. Azərbaycana gələn hər bir turist 700-1000 ABŞ dolları məbləğində vəsait xərcləyir».

Turizm yalnız gecələmə, bələdçi, iaşə xidməti obyektlərindən ibarət deyildir, əsas məqsəd turistlərin bu xərclərinin artırılması üçün əlavə xidmətlər təklif etməkdir. V.Şıxəmmədovun sözlərinə görə, Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyət istiqamətinə uyğun olaraq, bu gün ölkədə kifayət qədər festivallar, mədəni tədbirlər keçirilir, qonaqları cəlb edəcək turizm məhsullarının sayı artırılır.

O da xüsusi vurğulanıb ki, dünya artıq Azərbaycanı regionda turizm ölkəsi kimi qəbul edir. Bu günlərdə Rusiyanın «Aeroklub» şirkətlər qrupu işgüzar turizm bazarının liderlərini müəyyən edib. Azərbaycan rusiyalıların yaxın xarici ölkələr arasında biznes məqsədilə ən çox səfər etdiyi 5 ölkə siyahısına daxil edilib. Tədqiqatın nəticələrinə görə, 2017-ci ildə rusiyalılar biznes səfərləri üçün Qazaxıstan, Özbəkistan, Gürcüstan, Belarus və Azərbaycanı seçiblər. Maraqlıdır ki, son bir neçə il ərzində Gürcüstan ilk dəfə olaraq lider üçlüyə daxil olub.

> Azərbaycan rusiyalıların yaxın xarici ölkələr arasında biznes məqsədilə ən çox səfər etdiyi 5 ölkə siyahısına daxil edilib

Rusiyadan bu ölkəyə biznes uçuşlarının sayı 2,5 dəfə artıb. Ukrayna siyahıda 6-cı mövqeyə enib. İki ölkə arasında birbaşa aviauçuşlar ləğv edildiyindən, Ukraynaya Rusiya iş adamlarının 70 faizi Belarusdan, 17 faizi Azərbaycandan, 4 faizi isə Latviyadan tranzit yolla gedir.

Qeyd edək ki, «Aeroklub» şirkətlər qrupu korporativ müştərilər üçün işgüzar səfərlər və tədbirlər təşkil edir. Şirkətin Moskvada, Sankt-Peterburqda və Vladivostokda ofisləri var.

**FƏXRİYYƏ**

# Xarici ticarət dövriyyəsinin 37,3%-i Aİ ölkələrinin payına düşür

**2017-ci ilin yanvar-iyul aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 107 ölkəyə məhsul ixrac olunub, 169 ölkədən idxal olunub.**

Dövlət Statistika Komitəsindən bildiriblər ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-iyul aylarında xarici ticarət dövriyyəsi 12872,2 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 8502,5 milyon dollar, idxalın dəyəri 4369,7 milyon dollar təşkil edib, nəticədə 4132,8 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2016-cı ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 6,2 faiz artıb, real ifadədə isə 14,0 faiz, o cümlədən ixrac 8,4 faiz, idxal 22,7 faiz azalıb.

Ticarət dövriyyəsinin 37,3 faizi Avropa İttifaqı ölkələri, 13,2 faizi MDB üzvü dövlətləri, 49,5 faizi isə dünyanın digər ölkələrinin payına düşüb.




İxracın dəyərinin 22,6 faizi İtaliyaya, 12,5 faizi Türkiyəyə, 5,5 faizi Çinə, 5,3 faizi Rusiyaya, 4,6 faizi Gürcüstana, hər biri 4,3 faiz olmaqla Tayvan (Çinin əyaləti) və Portuqaliyaya, 4 faizi İsrailə, hər biri 3,7 faiz olmaqla Almaniya və Çexiyaya, 3,6 faizi Hindistana, 3,3 faizi Kanadaya, qalan 22,6 faizi isə digər ölkələrə göndərilmiş məhsullar əsasında formalaşıb.

İdxal olunmuş məhsulların dəyərinin 18 faizi Rusiyanın, 15,7 faizi Türkiyənin, 10 faizi Çinin, 8,7 faizi ABŞ-ın, 4,6 faizi Almaniyanın, 4,5 faizi Ukraynanın, 3,8 faizi İtaliyanın, 3,2 faizi İranın, 3 faizi Birləşmiş Krallığın, 1,7 faizi Fransanın, hər biri 1,6 faiz olmaqla Belarus və Qazaxıstanın, 23,6 faizi isə digər ölkələrin payına düşüb.

# İstehlak dövriyyəsində artım var

Yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2 faiz üstələyərək 21,7 milyard manat olub.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ticarət dövriyyəsinin 11 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10,7 milyard manatını qeyri-ərzaq məhsulları təşkil edib. Satılmış məhsulların dəyəri 2016-cı ilin yanvar-avqust aylarının göstəricilərindən real ifadədə müvafiq olaraq 1,2 faiz və 2,8 faiz çox olub.

Səkkiz ay ərzində istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 45,7 faizi ərzaq məhsullarının, 4,9 faizi içki və tütün məmulatlarının, 18 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,3 faizi elektrik malları və mebellərin, 5,1 faizi avtomobil yanacağının, 1,4 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,9 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.

İstehlak məhsullarının 12 faizi ticarət müəssisələri, 53,1 faizi fərdi sahibkarlar tərəfindən, 34,9 faizi isə bazar və yarmarkalarda satılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 6,4 faiz, fərdi sahibkarlar üzrə 1,9 faiz, bazar və yarmarkalar üzrə 0,5 faiz artıb.

Əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 279,4 manat və ya ötən ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 39,5 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 141,3 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 138,1 manatlıq qeyri-ərzaq məhsulları alıb.

# Fermerlərə verilən subsidiyalar idxaldan asılılığı aradan qaldırır

**Kənd təsərrüfatının inkişafına dair aparılan islahatlar, davamlı tədbirlər bəhrəsini verməkdədir. Xüsusilə aqrar sektorda ixracyönümlü məhsulların istehsalının artırılması istiqamətində uğurlu göstəricilər əldə edilir. Son iki ildə kənd təsərrüfatında ixrac potensialı yüksək olan və dünya bazarlarında ciddi şəkildə tələbat duyulan pambıqçılığın inkişafına təkan verilməsi və nəticədə pambıq sahələrinin 18 dəfədən çox artırılması ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Bu gün dünya bazarında keyfiyyətli pambıq mahlıcının bir tonunun qiyməti 1200 dollardan artıqdır. Bu isə neftin dünya bazarlarındakı hazırkı qiymətindən bir neçə dəfə yüksəkdir.**

Keçən il Azərbaycanda fındıq qeyri-neft sektoru üzrə ən böyük ixrac məhsulu olub. Bu sahənin inkişaf edtdirilməsi üçün son iki ildə 18 min hektarda yeni fındıq bağları salınıb. 2017-ci ilin birinci yarısında ölkə üzrə 32,3 milyon ABŞ dolları dəyərində fındıq ixrac edilib. Hazırda fındıq bağlarının sahəsi 55 min hektar təşkil edir, yaxın vaxtlarda bu rəqəmin 80 minə çatdırılması nəzərdə tutulub. Bundan başqa, tütün istehsalının da artırılaraq 12 min tona çatdırılması planlaşdırılıb: 2021-ci ilə qədər tütünçülükdə əkin sahələri 6 min hektara çatdırılacaq.

Müşahidələr göstərir ki, hərtərəfli dövlət qayğısı kəndlilərin torpağa marağını xeyli artırıb. Xüsusilə fermerlərə ayrılan subsidiyalar, onların 2014-cü ilin yanvarın 1-dən 5 il müddətinə vergilərdən azad edilməsi, kənd təsərrüfatı texnikası və mineral gübrələrlə güzəştli şərtlərlə təmin olunması siyasəti davam etdirilir.

Kənd Təsərrüfatı Nazirliyində Respublika Komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə növbəti iclas keçirilib. Nazirlikdən verilən məlumata görə, iclasda kənd təsərrüfatı məhsulları istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 50 manat, habelə buğda və çəltik əkinlərinə görə əlavə 40 manat məbləğində yardım verilməsi ilə bağlı rayon (şəhər) kənd təsərrüfatı idarələrinin və rayon (şəhər) komissiyalarının 34 rayon (şəhər) üzrə təqdim etdiyi sənədlərə baxılıb. Respublika Komissiyası 34 rayon (şəhər) üzrə 256.138 istehsalçıya 737.814,13 hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə 49 milyon 468 min 622,5 manat məbləğində yardım ayrılması barədə qərar qəbul edib. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yardımın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, «Kapital Bank» ASC-yə və aidiyyəti rayon (şəhər) kənd təsərrüfatı idarələrinə və rayon (şəhər) icra hakimiyyətlərinə göndərilib. Beləliklə, ümumilikdə Respublika Komissiyası 2017-ci ildə 57 rayon (şəhər) üzrə 372.042 istehsalçıya 102.5916,15 hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə 68 miyon 421 min 934 manat məbləğində yardım ayrılması barədə qərar qəbul edib.

İqtisadçı ekspert Vüqar Bayramov aqrar sektorun inkişafına diqqət yönəldilməsini perspektivli hal hesab edir. Onun sözlərinə görə, ümumi daxili məhsulda payı 6 faizdən az olan bu sektorda hazırda əmək qabiliyyətli əhalinin 38 faizinin çalışdığını nəzərə alsaq, bu sahənin yalnız qeyri-neft ixrac qabiliyyətinin artırılmasında deyil, eyni zamanda məşğulluğun təmin edilməsi istiqamətində də önəmli rol oynadığının şahidi olarıq: «Kənd təsərrüfatı məhsulları istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 50 manat, habelə buğda və çəltik əkinlərinə görə əlavə 40 manat məbləğində yardım verilməsi fermerlərin xərcinin azaldılması baxımından çox əhəmiyyətlidir. Bu isə imkan verir ki, fermerler xərclərini azaltmaqla həm istehsal həcmini genişləndirsinlər, həm də dünya bazarına daha çox məhsul ixrac etsinlər».

V.Bayramovun sözlərinə görə, subsidiya mexanizminin inkişafi və təkmilləşdirilməsi eyni zamanda regionların inkişafı və məşğulluğun təmin edilməsi üçün vacibdir: «Azərbaycanın ixracat strukturuna diqqət yetirsək, qeyri-neft ixracatının həcmi 1 milyard dollardan çoxdur. Qeyri-neft ixracatının təxminən 60 faizi aqrar məhsullardır. Bizim qiymətləndirmələr göstərir ki, aqrar sektorun ixrac potensialının artırılmasına subsidiyaların dairəsinin və eləcə də məbləğinin artırılması birbaşa təsir göstərir. Buğda və çəltiyin yetişdirilməsi Azərbaycan üçün həmçinin ərzaq təhlükəsizliyi baxımından vacibdir. Belə ki, Azərbaycan hər il sözügedən məhsulların idxalına valyuta xərcləyir. Subsidiyalaşma bu sahələrin inkişafını təşviq edir və bu, nəticədə idxaldan asılılığın aradan qaldırılmasına gətirib çıxarır. Bu baxımdan, kənd təsərrüfatında məhsul istehsalının təşviq edilməsi eyni zamanda daxili bazarın qorunmasına və idxalın əvəzlənməsinə xidmət edir».

**Fəxriyyə İKRAMQIZI**

## 2017-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin avqust ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Vergilər sentyabr ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin **oktyabr ayının 20-dən** gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# ABŞ şirkətləri Azərbaycanın kənd təsərrüfatı məhsullarına maraq göstərir

ABŞ-ın Boston ştatının şirkətlərinin nümayəndələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində olublar. Görüşdə məqsəd Azərbaycan ilə ABŞ-ın Boston ştatı arasında kənd təsərrüfatı sahəsinin müxtəlif istiqamətləri üzrə əməkdaşlıq imkanlarının, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və bu sahədə sərmayə qoyuluşunun müzakirəsi olub.

Qonaqlara Azərbaycanda aqrar sahədə həyata keçirilən institusional islahatlar, ölkə başçısının aqrar sahəyə göstərdiyi diqqət və qayğı, hökumət tərəfindən kənd təsərrüfatının müxtəlif sahələrinə ayrılan subsidiyalar, ixracyönümlü sahələr, xüsusilə pambıqçılıq, baramaçılıq, tütünçülük, fındıqçılıq və çayçılığa diqqət yetirildiyi barədə geniş məlumat verilib. Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının ekoloji baxımdan keyfiyyəti nəzərə çatdırılıb. Ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarına Rusiya və MDB məkanında yüksək tələbat olduğu, Azərbaycan məhsullarının, xüsusilə ölkəmizdə ən müasir istixanalarda istehsal olunan pomidorun Rusiya bazarında brend kimi tanındığı qeyd edilib. Bildirilib ki, Rusiya və MDB bazarı ilə yanaşı, ABŞ və dünyanın digər ölkələrinə də kənd təsərrüfatı məhsulları ixrac etmək niyyətindədir.

Qonaqların diqqətinə çatdırılıb ki, Azərbaycan neft-qaz ölkəsi olsa da, hazırda qeyri-neft sektorunun inkişafına böyük diqqət yetirilir. Bu məqsədlə dövlət tərəfindən strateji proqramlar, regionlarda sərmayə qoyuluşunu genişləndirmək üçün infrastruktur layihələri həyata keçirilir. İndi ölkəmizdə fermer və sahibkarlar, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib, gübrələr 70 faiz, kənd təsərrüfatı texnikaları 40 faiz güzəştlə verilir, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə Göygöl rayonunda ən müasir texnologiyalara uyğun Süni Mayalama Mərkəzi tikilib, hər doğulan buzova görə dövlət tərəfindən 100 manat subsidiya ayrılır.

**ABŞ nümayəndə heyətinin üzvləri Azərbaycan kənd təsərrüfatı məhsullarının ekoloji baxımdan təmiz olduğunu bildirərək, bu məhsulların ABŞ-ın Boston ştatına ixracında maraqlı olduqlarını diqqətə çatdırıblar**

Görüş zamanı Azərbaycanda ekoloji, təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üçün əlverişli investisiya mühitinin olduğu vurğulanıb. Nümayəndə heyətinin üzvləri Azərbaycan kənd təsərrüfatı məhsullarının ekoloji baxımdan təmiz olduğunu bildirərək, bu məhsulların ABŞ-ın Boston ştatına ixracında maraqlı olduqlarını diqqətə çatdırıblar.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin sentyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin sentyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html

və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Polşada azad iqtisadi zona rejiminin əhatə dairəsi genişlənəcək

Polşa hökuməti investisiyalar cəlb etmək məqsədilə azad iqtisadi zonalar rejimini ölkənin bütün ərazisi boyunca genişləndirmək niyyətində olduğunu bildirmişdir. Hazırda Polşada 14 xüsusi iqtisadi zonada tətbiq olunan vergi rejimi ölkənin şirkətlərinə qoyduqları investisiyaların və açdıqları iş yerlərinin qarşılığı olaraq vergi çıxılmaları hüququnu təmin edir. Bundan əlavə, əmlak vergisinin məbləğindən də vergi çıxılması nəzərdə tutulur. Planlaşdırıldığına görə, bu vergi rejimi 2026-cı ilə qədər davam etdiriləcək.

Hazırda qüvvədə olan vergi qanunvericiliyinə əsasən, şirkətlər dövlətdən azad iqtisadi zonaların rezidenti olmaq üçün icazə almağa borcludurlar, yalnız bu icazəni almaqla onlar vergi güzəştlərindən istifadə edə bilərlər. Lakin qanuna edilmiş dəyişiklik bütün maraqlı şirkətlərə, yerləşdikləri ərazidən və sərmayənin qoyulduğu yerdən asılı olmayaraq, bərabər imkanların yaradılmasını nəzərdə tutur.

Polşanın maliyyə naziri öz açıqlamasında bildirmişdir ki, vergi güzəştləri yerli administrasiyalar tərəfindən qəbul edilmiş qərarlar əsasında veriləcək.

## Tayvan gəlir vergisi islahatı aparmaq niyyətindədir

Hökumət korporativ verginin, fərdi gəlir vergisinin, eləcə də dividendlərdən tutulan verginin artırılması ilə bağlı açıqlama vermişdir. Dəyişikliklərin hamısı bu ayın sonunda parlamentdə müzakirə edilməsi planlaşdırılan qanun layihəsində təqdim olunmuşdur.

Nəzərdə tutulan dəyişikliklər ölkənin qanunverici orqanında qəbul edildikdən sonra korporativ verginin dərəcəsi 17 faizdən 20 faizə qaldırılacaq. Bununla yanaşı, bölüşdürülməmiş mənfəət üçün əlavə verginin dərəcəsi 10 faizdən 5 faizə endiriləcək.

Vətəndaşlara gəldikdə isə fiziki şəxslərin maksimal gəlir vergisinin dərəcəsi 45 faizdən 40 faizə endiriləcək, işçilər və əlillər üçün vergi güzəştlərinin əhatə dairəsi genişləndiriləcək. İslahat çərçivəsində xarici şirkətlər və vətəndaşlar üçün dividendlərdən tutulan verginin dərəcəsi 20 faizdən 21 faizə qaldırıla bilər.

## Süni intellekt sahəsində çalışan şirkətlərə vergi güzəştləri ediləcək

Çin hökuməti süni intellektin inkişafı sektorunun irəli aparılması üçün bu sahədə çalışan şirkətlərə vergi güzəştlərinin müəyyənləşdirilməsi barədə açıqlama vermişdir. Bildirilmişdir ki, Sənaye və Texnologiyalar Nazirliyi ölkənin digər nazirlikləri ilə birlikdə ayrıca bir vergi rejiminin yaradılması istiqamətində birgə iş aparır.

Hökumət ümid edir ki, vergi yükünün azaldılması kiçik və orta biznesin bu sənayeyə daxil olmasını stimullaşdıracaq, prosesin sürətləndirilməsi üçün innovasiya mərkəzləri yaradılacaq. Çin hökuməti 2020-ci ilə qədər süni intellekt sənayesində dövriyyənin 1 trilyon yuana (154 milyard dollar) qaldırılması barədə planını açıqlamışdır.

## PwC şirkəti gəlirlərini dalbadal 14 ildir artırır

Vergi, hüquq və konsaltinq sahələrində ixtisaslaşmış xidmət göstərən PwC şirkəti iyunun 30-da başa çatmış son maliyyə ili ərzində rekord məbləğdə - 3,6 milyard funt steriq (8,2 milyard manat) gəlir əldə etməsi barədə açıqlama vermişdir. Bu, ötənilki göstəricidən 5 faiz çoxdur: keçən maliyyə ilində şirkətin gəlirləri 3,44 (7,8 milyard manat) milyard funt sterlinq olmuşdu.

Şirkət rəhbərliyinin təsdiqlədiyi rəqəmlərə əsasən, sığorta, konsaltinq və vergi sahələri üzrə gəlirlərdə müvafiq olaraq 4,7 və 7 faiz artım qeydə alınmışdır.

## Vergi və yığımların qaytarılması üç il ərzində mümkün olacaq

Rusiya Federasiyasının hökuməti artıq tutulmuş vergi, yığım, sığorta haqları, dəbbə və cərimə məbləğlərinin geri qaytarılması prosedurlarının sadələşdirilməsi ilə bağlı qanun layihəsini dəstəklədiyini bəyan etmişdir.

Sənəd Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilməsini nəzərdə tutur. Dəyişikliklərə əsasən, vətəndaşlardan artıq tutulmuş məbləğin qaytarılması üçün müraciət etmək müddəti bir aydan üç ilə qədər artırılır. Yəni vətəndaşlara ödədikləri artıq məbləğləri geri ala bilmək üçün bundan sonra üç il müddətində müraciət etmək hüququ veriləcək. Bu zaman həmin məbləğin məhkəmə qaydasında qaytarılması istisna edilir. Qanun layihəsini hazırlayan mütəxəssislər hesab edirlər ki, nəzərdə tutulan dəyişikliklər artıq ödənilmiş vergi və rüsumların qaytarılması qaydalarını sadələşdirməklə bərabər, məhkəmə təhqiqatlarının da sayının əsaslı şəkildə azalmasına gətirib çıxaracaq.

## Aİ beynəlxalq şirkətlərə daha çox vergi ödətmək niyyətindədir



Avropa İttifaqında (Aİ) fəal biznes aparan «Google», «Amazon», «Apple» və «Facebook» kimi Amerika texnologiya nəhəngləri Aİ-nin Vergi Məcəlləsindəki müddəalardan öz xeyirlərinə istifadə edərək uzun müddət vergidən yayına bilərlər. Başda Fransa olmaqla Aİ üzvü olan ölkələrin təşkil etdiyi qrup bu təmayülün qarşısını almaq niyyətindədir. Fransanın, Almaniyanın, İtaliyanın və İspaniyanın maliyyə nazirləri birgə məktub imzalayaraq Aİ sədrlərinə (hazırda Estoniya təmsilçilərindən ibarətdir), eləcə də Avropa Komissiyasının üzvlərinə göndərmişlər. Məktubda yuxarıda adları çəkilmiş şirkətlər üçün yeni verginin tətbiq olunması tələb edilir.

«Biz daha bu şirkətlərin Avropada biznes apararaq bizim xəzinələrimizə minimal vergi ödəmələri ilə razılaşmalı deyilik», - məktubda deyilir. Məktub müəllifləri «bərabərləşdirici vergi» qoyulmasını təklif etmişlər. Onların fikrincə, qeyd edilən vergi başqa şirkətlərlə bu şirkətlərin ödədikləri verginin dərəcəsinin eyniləşdirilməsinə imkan yarada bilər.

«Financial Times» qəzetinin yazdığına görə, Aİ çərçivəsində qəbul edilmiş istənilən yeni qanun ittifaqın bütün üzvləri, o cümlədən Lüksemburq və İrlandiya ilə razılaşdırılmalıdır. Korporativ verginin dərəcəsini azaltmaq bir çox transmilli şirkətlər üçün vergi limanları sayılan bu ölkələrə imkan verir ki, dünyanın hər yerindən iri korporasiyaları özlərinə cəlb edib milyardlar qazansınlar və bununla Aİ-yə daxil olan digər ölkələrin mənfəət götürmək imkanlarını əllərindən alsınlar.

O da qeyd edilmişdir ki, korporasiyaları «sıxışdırmaq» cəhdləri heç də həmişə uğurla başa çatmır. 2016-cı ildə «Apple» şirkətinin üzərinə Aİ ölkələrində vergidən yayındığına görə, 13 milyard avro ödəmək öhdəliyi qoyulmuşdu, lakin şirkət hazırda bu qərarı ləğv etdirmək istiqamətində iş aparır. «Google» şirkəti də ondan 1,13 milyard avro vergi tələb edən Fransa dövləti üzərində qələbə qazandı. Böyük Britaniyadakı satışları 9,2 milyard dollardan artıq olan «Amazon» isə Britaniyanın vergi orqanlarına vur-tut 9,8 milyon dollar vəsait ödəmişdir.

## Malayziya hökumətinə vərəsəlik vergisi tətbiq etmək təklif olunub

Penanq İstehlakçıları Assosiasiyası (SAR) Malayziya hökumətini 2018-ci ilin büdcəsinə vərəsəlik vergisini yenidən salmağa çağırmışdır. İctimaiyyətə təqdim edilmiş açıqlamada zəngin vətəndaşların üzərinə vergi yükü qoymaq məqsədilə vərəsəlik vergisinin əhəmiyyətinə aydınlıq gətirilmişdir.

«SAR varlılar ilə kasıblar arasında mövcud olan fərqin aradan qaldırılması üçün sərt tədbirlərə əl atmağa çağırır, - qrupun təmsilçisi bildirmişdir. - Bu cür qeyri-bərabərliyin yaratdığı problemin həlli üçün ən yaxşı üsul vergitutma mexanizmlərindən, xüsusilə də vərəsəlik vergisindən istifadə etməkdir».

Qeyd edək ki, Malayziya vərəsəlik vergisini 1991-ci ildə ləğv etmişdir. Bu verginin ləğvinə qədər qiyməti 2 milyon Malayziya rinqqitindən (475.206 ABŞ dolları) artıq olan ərazilər üçün 5 faizlik, dəyəri 2,4 milyon rinqqitdən (570.247 ABŞ dolları) artıq olan daşınmaz əmlak üçünsə 10 faizlik rüsum dərəcəsi tətbiq olunurdu.

Qrup qiyməti 2 milyon rinqqitdən 3 milyona (712.809 ABŞ dolları) qədər olan əmlak üçün 50 faizdən az olmayaraq vərəsəlik vergisinin tətbiq olunmasını tövsiyə etmişdir. Tövsiyədə diqqət mirasın həcmindən asılı olaraq proqressiv artımın tətbiqinə yönəldilmişdir. SAR, həmçinin, hökuməti dəbdəbəli əşyalar üçün tutulan mallar və xidmətlər üçün verginin (GST), eləcə də siqaret və alkoqollu içkilər kimi «zərərli mallardan» tutulan verginin dərəcəsini artırmağa çağırmışdır.

## BRİKS sammiti vergi sazişinin imzalanması ilə başa çatıb

BRİKS-ə daxil olan ölkələrin yenicə başa çatmış sammitində imzalanmış vergi sazişinə əsasən, iştirakçı ölkələr vergilərə aid informasiyaları öz aralarında mübadilə etmək və vergi ödəməkdən yayınmağa qarşı birgə fəaliyyət göstərmək barədə razılığa gəlmişlər.

Sammitin ümumi kommunikesində göstərilmişdir: «Biz ədalətli və müasir vergi sisteminə nail olmaq istiqamətində səy göstərdiyimizi təsdiq edir, iqtisadi inkişafa yönəldilmiş keyfiyyətli vergi mühiti təklif edirik».

Sənəddə, həmçinin, ölkələrin bir-birinə yalnız fiskal və maliyyə sektorunda deyil, həm də müasir texnologiyalar sahəsində yardım etmək niyyətində olduqları qeyd edilmişdir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Xürrəmilər hərəkatının rəhbəri, Ərəb Xilafətinə qarşı Azərbaycandakı üsyana rəhbərlik etmiş böyük sərkərdə; 2.Azərbaycanın satirik şairi (1784-1857); 3.Qadın adı; 4.Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi; 5.İslam dinində siyasi və hüquqi idarə üsulu; 6.Nəfəsli musiqi aləti. Simfonik orkestrin tərkibinə daxil olan əsas alətlərdən biri; 9.Bir çox ölkələrdə xüsusi xidmətlərə görə rəsmi surətdə verilən fərqlənmə nişanı; 11.Bir ölkənin sərhədləri çərçivəsində müəyyən müddət ərzində ixrac, daxili istifadə və ehtiyat üçün istehsal olunan son məhsulların və xidmətlərin toplam dəyəri *(abbreviatura)*; 13.Simli musiqi aləti; 14.XIV-XV əsrlərdə astronomik hesablamaları əhatə edən təqvim cədvəllərinə verilən ad. Sonrakı dövrlərdə müxtəlif bədii və elmi əsərləri əhatə edən məcmuələrə də bu ad verilmişdi; 15.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 17.Böyük zaman ölçüsü; 18.Ftorun digər elementlərlə kimyəvi birləşməsi; 21.Ötən əsrin 60-cı illərində yaranan rəqs; 22.Bitki növü; 23.Rusiyanın futbol klubu. **Soldan sağa:** 1.Azərbaycan Respublikasının ən hündür nöqtəsi, hündürlüyü 4466 metrdir; 5.Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda kənd; 7.Britaniya monarxlarının (hazırda II Yelizavetanın) rəsmi London iqamətgahı *(sarayı)*; 8.Gülçiçəklilər fəsiləsindən bitki cinsi; 10.Yaxın Şərqdə xalq. Türkiyə, İraq, İran, Suriya ərazisində kompakt halda yaşayırlar; 12.Səs dalğalarını elektrik siqnalına çevirən elektroakustik cihaz; 14.Cənubi Amerikada çay; 16.Yeddi musiqiçidən ibarət ansambl; 19.Musiqidə temp; 20.Mərhələ *(rusca)*; 24.Ən mühüm ünsiyyət vasitəsi olan dilin şifahi və yazılı təzahür forması; 25.Sığorta müqaviləsində sığortaçının müəyyən edilmiş həddən kənara çıxan itkilərdən azad edilməsini nəzərdə tutan şərt; 26.Vokal musiqinin kollektiv ifası; 27.1992-ci ildən Olimpiya idman növünə daxil edilən oyun, tennislə bənzər xüsusiyyətləri var.

Respublikamızda ən hündür nöqtə



**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İmpost; 2.Litavra; 3.Moizm; 4.Barxan; 5.Romeo; 6.Qandax; 9.Siqi; 13.Opal; 15. Kerroll *(Lüis)*; 16.Abılay *(xan)*; 17.Salair; 18.Ankara; 20.Kater; 21.Tilov. **Soldan sağa:** 1.İslamabad; 5.RPQ; 7.Patriarx; 8. Emin *(Sabitoğlu)*; 10.Sevim; 11.Arizona; 12.Hanoy; 14.Kilkə; 19.Bakkara; 21.Turan; 22.Lita; 23.Kalliopa; 24.Yar; 25.Karavella.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# «Gəncə Marafonu - 2017»



**Sentyabrın 17-də Gəncə şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Gəncə Marafonu - 2017» keçirilib. 11 mindən çox insanın iştirak etdiyi yarışa paytaxt Bakıdan, respublikanın ayrı-ayrı bölgələrindən, eləcə də müxtəlif ölkələrdən insanlar qatılıb. Tədbir «İradənlə tarix yaz», «Marafonda bizimlə ol» şüarı altında keçirilib. İştirakçılar arasında hökumət nümayəndələri, Milli Məclisin deputatları, mədəniyyət xadimləri olub. Marafonda Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan, İtaliya, İran və digər ölkələrin vətəndaşları da yarışıb.**

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov iştirakçıları salamlayaraq bildirib ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizdə artıq 3-cü marafon keçirilir. İnsanların bu marafonlara qoşulması, iştirakçı sayının getdikcə artması Azərbaycanda idman tədbirlərinə böyük maraq olduğunu göstərir. «Hər birinizi bizim bütün layihələrimizdə iştiraka çağırıram», - deyə A. Ələkbərov bildirib.

Sonra marafona start verilib. İştirakçılar «Zəfər Tağı»ndan Nizami Gəncəvi prospekti, Heydər Əliyev prospekti, Cavad xan küçəsi, «Gəncəçay» bulvarı, Şah İsmayıl Xətai prospekti ilə hərəkət edərək Heydər Əliyev park kompleksinə qədər məsafəni qət ediblər. Marafonun uzunluğu ümumilikdə 17 kilometr olub. «Gəncə Marafonu - 2017»nin qalibləri iki kateqoriyada - kişi və qadın iştirakçılar arasında müəyyənləşib. Kişilər arasında finiş xəttini ilk olaraq Türkiyə vətəndaşı Üzeyir Söyləməz, ikinci İrandan olan Mohammed Cəfər Muradi, üçüncü Gürcüstan vətəndaşı Omar Baikeyev keçib. Qaliblərə mükafatı Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Anar Ələkbərov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, «Azercell Telekom»un prezidenti Vahid Mürsəliyev təqdim ediblər. Qadınlar arasında isə birinci yeri Ukrayna vətəndaşı Valentina Poltavska, ikinci yeri Azərbaycan vətəndaşı Anna Yusipova, üçüncü yeri Böyük Britaniya vətəndaşı Nataşa Petersen qazanıb.

Qeyd edək ki, kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 min AZN, 2-ci yerin qalibi 2 min AZN, 3-cü yerin qalibi isə min AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunublar.

# Azərbaycan cüdoçularının Avropa zəfəri

Sloveniyanın Maribor şəhərində gənclər arasında cüdo üzrə Avropa çempionatı başa çatıb. Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, yarışın ilk günündə Azərbaycan milli komandasının 13 üzvü tatami üzərinə çıxıb. Yığmamız böyük uğur qazanaraq aktivinə altı medal yazdırıb.

Ölkəmizi təmsil edən Kəramət Hüseynov (60 kq) və Hidayət Heydərov (73 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionatının qızıl medalına sahib olublar. Rəşxan Baxışəliyev (55 kq) və Murad Fətiyev (73 kq) yalnız finalda uduzaraq gümüş medalla kifayətlənməli olublar. Xanım cüdoçularımızdan Gültac Məmmədəliyeva (48 kq) və Nəzakət Əzizova (52 kq) isə çempionatın bürünc medallarına layiq görülüblər.

Mötəbər yarışın ikinci günü də cüdoçularımız üçün uğurlu olub. 100 kq çəki dərəcəsində mübarizə aparan Zelim Kotsoyev bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıb. Azərbaycan cüdoçusu həlledici görüşdə Rusiyanı təmsil edən erməni əsilli cüdoçu Arman Adamyana qalib gələrək qızıl medala layiq görülüb.

Beləliklə, Azərbaycan cüdoçuları qitə birinciliyində 3 qızıl, 2 gümüş və 2 bürünc medal qazanıblar. 41 ölkədən 402 idmançının mübarizə apardığı turnirdə 10 oğlan və 6 qız cüdoçu ilə təmsil olunan Azərbaycanın kişilərdən ibarət komandası birinci yeri tutub. Rusiya ikinci, Almaniya isə üçüncü olub. Ümumi komanda yarışında isə millimiz ikinci pillədə qərarlaşıb.




Fərdi yarışlardan sonra gənc cüdoçuların Avropa birinciliyində komanda yarışları keçirilib. Milli komandamız mötəbər yarışda bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub. Cüdoçularımız Ukrayna, Finlandiya, İtaliya və Gürcüstan yığma komandalarını məğlub ediblər. Elçin İsmayılovun başçılıq etdiyi məşqçilər heyətinin üzvlərinə və cüdoçularımıza qitə birinciliyinin qızıl medalları təqdim olunub. İdmançılarımızın şərəfinə Sloveniyada Azərbaycanın dövlət himni səsləndirilib, üçrəngli bayrağımız qaldırılıb.

# Ueyn Runi sərxoşluğun qurbanı oldu



«Everton» klubunun hücumçusu, İngiltərə yığmasının sabiq kapitanı Ueyn Runi avtomobili sərxoş vəziyyətdə idarə etdiyi üçün polis tərəfindən saxlanılaraq həbs edilib. Qanında alkoqolun miqdarının yol verilən normadan təxminən üç dəfə çox olduğu aşkarlanan ulduz futbolçu məhkəmənin qərarı ilə iki il müddətinə sürücülük hüququndan məhrum edilib və 12 ay ərzində 100 saatlıq ictimai işlərə məhkum olunub. Bundan başqa, o, 170 funt-sterlinq məbləğində cərimə də ödəməlidir.
İdmançı məhkəmə dinləmələrindən sonra verdiyi bəyanatda ağılsız hərəkətinə görə azarkeşlərindən üzr istəyib: «Təbii ki, mən hökmlə razıyam və öz təqsirimi ictimai işlərdə iştirakımla yuya biləcəyimə ümidvaram».

mozaika

texnologiya




# Virtual reallıq və xarici dil təlimi

«ATi Studios» şirkəti «Google Daydream» platforması üçün səsi tanıya bilən və xarici dil öyrənməyə kömək edəcək «MondlyVR» proqramını hazırlayıb.

«MondlyVR» xarici dil öyrənənlər üçün virtual reallığa yüklənməyə və burada müxtəlif personajlarla danışmağa imkan verəcək. İstehsalçılar proqramın ən populyar dillərdən (ingilis, yapon, fransız, ispan və s.) başlayaraq əsas etibarilə yalnız dil daşıyıcıları və linqvistika sahəsinin mütəxəssisləri tərəfindən öyrənilən dillərədək (fin, macar) - 30 dili dəstəkləyəcəyini bildiriblər.

Şirkətin baş icraçı direktoru Aleks İlieskunun sözlərinə görə, xarici dil öyrənməyin ən yaxşı üsulu həyati ssenarilər və söhbətləri canlandıran virtual reallığa yüklənməkdir. Yeni dil öyrənərkən ünsiyyət zamanı insanlara qorxu və təcrübənin olmaması maneə yaradır. «MondlyVR» xarici dil öyrənənlərə real ünsiyyət vəziyyətlərində bu baryerləri aşmağa kömək edir.

Həmçinin qeyd edilir ki, ənənəvi dilöyrənmədə altı ayadək vaxt tələb olunduğu halda, «MondlyVR» proqramı çərçivəsində ilk gündən öyrədilir. Proqramın işləməsi üçün virtual reallıq dəbilqəsini taxmaq tələb olunur.

# Soyuducu sahibini «tanıyır»

Yaponiyanın «Panasonic» şirkəti «ağıllı» soyuducu konseptini təqdim edib. Qurğu Berlində keçirilən «IFA-2017» sərgisində nümayiş etdirilib.

Mini-soyuducu içkilərin və qəlyanaltıların saxlanılması üçün nəzərdə tutulub. Bu qurğu daxili məlumat bazası sayəsində orada olan məhsulları təhlil edərək insana tövsiyə verə bilər.

Bundan başqa, soyuducu insan səsi ilə verilən komandaları «anlamağı» və istifadəçinin çağırışı üzrə onun yanına gəlməyi bacarır. Yeni qurğu məkanda səmtləşmə üçün dərinlik tənzimləyiciləri ilə və lazer sensorlarla təchiz olunub.

hadisə

# Quşlar təyyarənin uçuşunu ləngidib



Təbriz-Bakı reysini yerinə yetirən təyyarənin mühərrik bölməsində quş yuvası aşkarlanması səbəbindən uçuş təxirə salınıb. Bu barədə xəbər verən yerli mətbuatda bildirilib ki, İranın ATA Hava Yollarına məxsus təyyarə Təbrizin hava limanından Bakı istiqamətinə uçuşa hazırlaşarkən kapitan mühərrikdən qeyri-adi səsin gəldiyini duyub və mühərrikin yoxlanılmasını istəyib. Yoxlama zamanı məlum olub ki, mühərrikin yerləşdiyi bölməyə bir neçə quş girib.

Quşlar mühərrik bölməsindən götürüləndən sonra təyyarənin uçmasına icazə verilib.

təbabət

# Aspirinin təhlükəli xüsusiyyəti aşkar edilib



Amerika alimləri aspirinin təhlükəli xüsusiyyətini aşkar ediblər. Onlar bildiriblər ki, aspirin yoğun bağırsaqda yeni bədxassəli törəmələrin inkişafının qarşısını almaqla bərabər, xərçəng hüceyrələrinin təkamül potensialını artırır. Nəticədə preparatın təsirinə məruz qalmayan xərçəng hüceyrələri ilə müqayisədə belə hüceyrələr çoxsaylı mutasiyalara uğrayır. Belə çıxır ki, dərman vasitələrinə davamlı olan xərçəng hüceyrələrinin payı aspirin üzündən artır. Alimlər laboratoriya eksperimentləri gedişində bu qənaətə gəliblər.

Tədqiqatların artan həcmi göstərir ki, beş il ərzində hər gün az miqdarda aspirin qəbul etmək gələcəkdə xərçəngin inkişaf riskini azaldır. Məsələn, yoğun bağırsaqda bədxassəli törəmələrin əmələ gəlməsi ehtimalı azalır.

ABŞ-da yaşlı əhalinin təqribən 50 faizi ürək-damar xəstəliklərinin profilaktikası məqsədilə hər gün 80-325 milliqram aspirin qəbul edir. Böyük Britaniyada bu göstərici 40 faiz təşkil edir.

Daha əvvəl amerikalı tədqiqatçılar bildirmişdilər ki, Alsheymer xəstəliyinin müalicəsində də aspirindən istifadə etmək olar.

cəmiyyət

# Süni intellekt araşdırmaları üçün 9 milyard dollar

İlkin proqnozlara görə, Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) süni intellekt sahəsində araşdırmalara yatırılan investisiyaların həcmi 2017-ci ilin sonu üçün 33 milyard dirhəmə (8,9 milyard ABŞ dolları) çatacaq.

Ekspert və alimlərin hesablamalarına görə, BƏƏ-də süni intellekt sahəsində araşdırmalara yatırılan investisiyalar son üç ildə 70 faiz artıb və bu da ölkənin müasir texnologiyalar və süni intellekt dünyasına əsaslı şəkildə daxil olduğunu göstərir. Bildirilir ki, son bir neçə ildə BƏƏ hökuməti Ərəb Əmirliklərini bütün sahələrdə müasir texnologiyalar tətbiq edən ən qabaqcıl ölkələrdən birinə çevirmək səylərində ardıcıl olub. Yüksək texnologiyaların tətbiqi siyasətinin yürüdülməsi nəticəsində Birləşmiş Əmirliklər elektron hökumətdən «ağıllı» hökumətə çevrilə bilib.



BƏƏ-nin iqtisadiyyat nazirinin sənaye məsələləri üzrə müavininin köməkçisi Abdulla Al-Fan Al-Şəmsi «Gulf News» nəşrinə müsahibəsində bildirib ki, hazırda süni intellekt gələcəyin əsas komponenti, dördüncü sənaye inqilabı üçün təməl rolunu oynayır. Onun sözlərinə görə, BƏƏ-də yüksək texnologiyalar sahəsində araşdırmalara yatırılan investisiyaların həcmi haqqında proqnoz ölkə rəhbərliyinin həyati əhəmiyyətə malik sektorların rəqabətədavamlılığını və dayanıqlılığını artırmaq üçün müasir texnologiyalardan istifadə sahəsinə göstərdiyi diqqəti əks etdirir.

**Müdriklər deyib ki...**



***«Əxlaq mövzusunda ən mühüm dərslər kitablardan deyil, yaşanan təcrübələrdən alınır».***

*Mark Tven (1835-1910)*